# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyeva



4

№ 060 (7228)

12 aprel 2025-ci il.
Qiymətı 60 qəpik

## Qlobal çağırışlar üçün mühüm platforma - IV Antalya Diplomatiya Forumu



2

Prezident İlham Əliyev: "Bu tədbir beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biridir"

# Çin alternativ ticarət yolları axtarışında

## Amerika iqtisadi cəhətdən qeyri-sabitlik və təhlükəli mərkəzə çevrilir



9

### Yeni Azərbaycan Partiyasının nümayəndələri IV Antalya Diplomatiya Forumunda iştirak edirlər



5

### Ölkədən getmək hüququ məhdudlaşdırılmış borclu şəxslərə SMS göndəriləcək



11

### Bərpaolunan enerji qaynağı: külək



15

### Azərbaycanda televiziyalara yeni tələb qoyuldu



16

### Uşaqlar niyə yoxa çıxır?



10

# Qlobal çağırışlar üçün mühüm platforma - IV Antalya Diplomatiya Forumu

## Prezident İlham Əliyev: "Bu tədbir beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biridir"




İctimai-siyasi cəhətdən sabit, iqtisadi cəhətdən dinamik inkişaf edən, beynəlxalq miqyasda yüksək imicə sahib olan Azərbaycan dünyada söz sahibinə çevrilib. Milli maraqlarını hər zaman qoruyan ölkəmizin beynəlxalq miqyasda özünü təsdiqləməsi, irimiqyaslı layihələrin müəllifi kimi çıxış etməsi Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasətinin təzahürüdür. Xarici siyasətini beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında quran Azərbaycan müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən, Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, İslam Konfransı Təşkilatına digər təşkilatlara üzv olaraq beynəlxalq səviyyədə əməkdaşlıq münasibətlərinin qurulmasına nail olub. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövründə beynəlxalq əməkdaşlığa mühüm töhfələr verib.

2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Qələbə ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirib, onu etibarlı tərəfdaş və qlobal proseslərə təsir göstərən dövlət kimi tanıdıb. Bu gün Azərbaycan dünya birliyində sabitlik, inkişaf və əməkdaşlıq simvolu kimi çıxış edir. Son bir neçə ildə Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Görüşündə, Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində, Ərəb Dövlətləri Liqasının 31-ci Sammitində, SPECA - Mərkəzi Asiya Ölkələrinin





İqtisadiyyatları üçün Xüsusi BMT Proqramının Zirvə Görüşündə, Davos Dünya İqtisadi Forumunda iştirakı ölkəmizə marağın əyani təcəssümüdür. Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 11-də Türkiyənin Antalya şəhərində işə başlayan IV Antalya Diplomatiya Forumunda iştirakı ölkəmizin beynəlxalq nüfuzunun davamlı artmasının növbəti təsdiqidir. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu mühüm tədbirdə iştirak ediblər.Tədbirdə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış etdi. O, Forumun əhəmiyyətini vurğuladı, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini dedi.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan Forumun roluna toxundu.

Qeyd edək ki, qlobal çağırışlarla bağlı müzakirələrin aparılması, onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından biri olan "Antalya Diplomatiya Forumu"nda 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir olmaqla ümumilikdə 140 ölkədən 450-dək yüksəksəviyyəli nümayəndə iştirak edir.

Forum çərçivəsində müxtəlif formatlarda keçiriləcək 50-dən artıq tədbirdə Yaxın Şərqdən Asiya və Sakit okean hövzəsinə, Afrikadan Latın Amerikasına qədər geniş coğrafiyada qlobal çağırış və təhdidlərlə yanaşı, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, süni intellekt kimi dünya gündəmində mühüm yer tutan məsələlər ətrafında müzakirələr aparılacaq.

Prezident İlham Əliyevin bu forumda iştirakı bir daha göstərir ki, Azərbaycan yalnız regionda deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edilir. Dövlətimizin başçısının beynəlxalq münasibətlər sahəsində zəngin təcrübəsi, strateji baxışları və praqmatik yanaşmaları onu beynəlxalq platformalarda böyük maraqla qarşılanan Liderə çevirib. Prezident İlham Əliyevin iştirakı ilə keçirilən forumlar və zirvə görüşləri təkcə diplomatik formatda deyil, həm də məzmun və nəticələr baxımından yeni keyfiyyət mərhələsinə yüksəlir.

### SÜLH VƏ ƏMƏKDAŞLIĞIN TƏŞƏBBÜSKARLARI

Azərbaycan və Türkiyə arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş "Bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluqları sayəsində ən yüksək zirvəyə çatıb. Bu münasibətlər təkcə iki qardaş ölkə arasında deyil, həm də regionun təhlükəsizliyi və inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında formalaşmış qarşılıqlı etimada əsaslanan əməkdaşlıq bu birliyin davamlılığını və gücünü təmin edən əsas amillərdəndir.

Antalyada keçirilən görüşlər Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı vəziyyətinə və inkişaf perspektivlərinə dair əhəmiyyətli fikir mübadiləsi üçün geniş imkanlar yaradacaq. Bu səfər, həmçinin ikitərəfli əməkdaşlığın siyasi, iqtisadi, enerji, nəqliyyat, müdafiə və digər sahələrdə daha da dərinləşdirilməsi baxımından mühüm addımdır. Bununla yanaşı, Azərbaycan və Türkiyə bu gün regional təhlükəsizliyin təminatçıları, sülh və əməkdaşlığın təşəbbüskarları kimi çıxış edirlər.

Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib. Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.

Dövlətimizin başçısı Antalya Diplomatik Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev aprelin 11-də Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü olub. Söhbət zamanı Prezident İlham Əliyevlə Ersin Tatar arasında ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər, həmçinin ötən il onun Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasını qeyd etdi. Ersin Tatar dövlətimizin başçısına Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə və dəstəyə, həmçinin bir neçə gün əvvəl ADA Universitetində keçirilən beynəlxalq forumda dediyi sözlərə görə minnətdarlığını ifadə etdi. Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsi və bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.

Prezident İlham Əliyevin dünən Antalyada həmçinin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub. Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik etdi. Dövlətimizin başçısı dedi ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Ardı Səh. 3

Əvvəli Səh. 2

Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd etdi.

Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd etdi. Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici amillərin bu məsələyə təsirindən narahatlığını vurğuladı.

Görüşdə, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunuldu.

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olundu. Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 11-də Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə də görüşüb.

# Qlobal çağırışlar üçün mühüm platforma - IV Antalya Diplomatiya Forumu

## Prezident İlham Əliyev: "Bu tədbir beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biridir"







### QLOBAL ENERJİ ƏMƏKDAŞLIĞI

Prezident İlham Əliyevin Antalyaya işgüzar səfəri və Antalya Diplomatik Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisəyə çevriləcək.

Azərbaycanın artan beynəlxalq nüfuzu, onun iqtisadi, enerji və nəqliyyat sahələrində həyata keçirdiyi irimiqyaslı layihələrlə də sıx bağlıdır.

Müasir dünyada Azərbaycan qazına dünya bazarında böyük tələbatın olduğundan qaz təchizatının şaxələndirilməsi istiqamətində addımlar atılıb. Ölkəmizdə Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işi, eləcə də Aİ ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq sənədi əhəmiyyət kəsb edir. Bir sıra Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Müasir dünyada Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Azərbaycan təbii qazı 12 ölkəyə çatdırır. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvləridir.

Ölkəmiz bu gün regionun enerji xəritəsini müəyyən edən aparıcı aktorlardan biri kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan və dünya enerji təhlükəsizliyinə mühüm töhfə verən Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji mənbələrinin şaxələndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Üç min beş yüz kilometrdən çox uzunluğu olan bu layihə Azərbaycanın zəngin enerji resurslarını Gürcüstan, Türkiyə və Cənubi Avropa ölkələri vasitəsilə beynəlxalq bazarlara çatdırmaqla qlobal enerji əməkdaşlığının mühüm komponentinə çevrilib.

### BEYNƏLXALQ ENERJİ BAZARINDA ETİBARLI TƏRƏFDAŞ



Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın enerji diplomatiyasının ən uğurlu nümunələrindən biridir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən bu layihə ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevrilməsinə imkan yaradıb.

Cənub Qaz Dəhlizi qaz tədarükünü ikiqat artırmaq potensialına malikdir, Əlbəttə ki, qaz təchizatının şaxələndirilməsi istiqamətində atılan addımlar çox vacibdir.

Vurğulamaq yerinə düşər ki, bu layihənin gerçəkləşməsi uzun və çətin bir proses olub. Dəhlizin təməli 1997-ci ildə qoyulsa da, 2003-cü ildə onun iqtisadi cəhətdən səmərəsiz ola biləcəyi ilə bağlı ehtimallar, həmçinin xarici təzyiqlər və müxtəlif bürokratik maneələr layihənin həyata keçirilməsini çətinləşdirdi. Lakin Prezident İlham Əliyevin siyasi iradəsi və strateji baxışı nəticəsində bu maneələr aradan qaldırıldı və layihə yeni inkişaf mərhələsinə keçdi. 2013-cü ildə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin dörd layihəsi - "Şahdəniz", "Cənub Qafqaz Boru Kəməri", TANAP və TAP-ın genişləndirilməsi ilə bağlı Sərəncam imzaladı. Məhz bundan sonra Cənub Qaz Dəhlizi tam gücü ilə işlək vəziyyətə gətirildi və Azərbaycan qazının Avropaya çatdırılmasına başlanıldı.

2014-cü ildə layihənin daha sistemli və effektiv idarə olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin Sərəncamı ilə "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Bu qurum layihənin maliyyələşdirilməsi, idarə olunması və inkişaf etdirilməsi ilə bağlı mühüm funksiyalar yerinə yetirir. 2015-ci ildən etibarən isə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantıları mütəmadi olaraq keçirilməyə başladı. Bu görüşlər layihənin beynəlxalq səviyyədə əlaqələndirilməsinə, tərəfdaş ölkələrlə əməkdaşlığın gücləndirilməsinə və Cənub Qaz Dəhlizinin uzunmüddətli dayanıqlığının təmin edilməsinə xidmət göstərir. Azərbaycanın uğurlu enerji strategiyası nəticəsində bu layihə tam gücü ilə işləyir, ölkəmiz beynəlxalq enerji bazarında etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir.

### REGİONUN VƏ DÜNYANIN GƏLƏCƏYİNƏ TÖHFƏ

Bununla yanaşı, ölkəmiz nəqliyyat və logistika sahəsində də mühüm təşəbbüslərlə çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və görülən digər işlər Azərbaycanın regionun əsas nəqliyyat qovşağına çevrilməsini təmin edir. Bu layihələr təkcə regional deyil, həm də Asiya ilə Avropa arasında strateji əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır.

Azərbaycan yaşıl enerji sahəsində də uğurlu layihələr həyata keçirərək, bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində mühüm addımlar atır. Bərpaolunan və yaşıl enerji əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanğıcıdır. Ölkəmizdə energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bu enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib.

Azərbaycanın uğurlu diplomatiyasının nəticəsi olaraq ölkəmiz beynəlxalq əməkdaşlıq platformalarında da fəal iştirak edir. COP29 kimi mötəbər beynəlxalq tədbirin 2024-cü ildə Azərbaycanda keçirilməsi ölkəmizin qlobal ekoloji gündəmdəki mühüm rolunu və iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi töhfələri bir daha təsdiqləyir. Bu tədbir vasitəsilə Azərbaycan bəşəriyyətin qarşısında dayanan ən aktual problemlərin həllində təşəbbüskar və məsuliyyətli tərəfdaş olduğunu nümayiş etdirib. Azərbaycan COP29 vasitəsilə yaşıl iqtisadiyyat yolunda irəliləmək üçün əlavə stimul qazanacaq. Heç şübhəsiz ki, bu konfrans çərçivəsində təqdim olunan beynəlxalq təcrübə və texnologiyalar ölkədə bərpaolunan enerji mənbələrinin tətbiqini genişləndirəcək.

Bundan əlavə, Azərbaycanın BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq qurumlarla sıx əməkdaşlıq şəraitində həyata keçirdiyi humanitar və inkişaf layihələri də ölkəmizin dünyada sabitlik, humanizm və dialoq mədəniyyətinin təşviqinə verdiyi əhəmiyyətli töhfələrin göstəricisidir. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrin maraqlarını müdafiə etməsi, qlobal ədalətin bərpasına yönəlmiş addımlar atması beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilib.

Bütün bu fəaliyyətlər fonunda Prezident İlham Əliyevin Antalya Diplomatik Forumunda iştirakı Azərbaycanın dünya siyasətində mühüm söz sahibi olan dövlətə çevrildiyini bir daha nümayiş etdirir. Azərbaycan bu gün yalnız enerji və nəqliyyat sahələrində deyil, həm də sülh, əməkdaşlıq və dayanıqlı inkişaf naminə beynəlxalq birlikdə fəal mövqe tutaraq, regionun və dünyanın gələcəyinə töhfə verir.

***Zümrüd BAYRAMOVA***

# Dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyeva

***Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyeva zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatları, qazandığı nailiyyətləri, yaratdığı fundamental əsərləri ilə şöhrət qazanmış böyük ziyalıdır. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir.***

Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası, məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Kainat qədər geniş qəlbindən və zəkasından çağlayan ilahi nuru onu tanıyanların mənəvi dünyasına daim nur saçır. Beynəlxalq aləmdə cəm olunaraq bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda ona qarşı təsirli müalicə üsulları isə yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.



1968-ci ildən başlayaraq, Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Eyni zamanda, o, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neftkimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. Zərifə xanım bu problem üzərində iş apararkən çox vaxt bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir. Elmi tədqiqatların nəticəsi olaraq Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail oldu. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

## "NƏCİBLİK VƏ MƏNƏVİ PAKLIQ TİMSALI"

Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda

qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N. Dobromislovun və başqalarının yazılarında alimin şərəfli, zəngin elmi fəaliyyətinin nailiyyətərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb. Moskva oftalmoloji məktəbi Zərifə xanımı "oftalmologiyanın mirvarisi", Professor A.Brovkina onu "nəciblik və mənəvi paklıq timsalı" adlandırmışdır.

## "MƏNİM ANAM ƏSL ALİM İDİ"

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verirdi. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssaslığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarlı bir ömrünü yazılı salnamələrdə əks etdirdi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Azərbaycan Prezidenti İlham Əliyev Zərifə xanım haqqında belə deyir: "Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir."

## "O, ÇOX İSTEDADLI, ÇOX XEYİRXAH, ÇOX SADƏ İNSAN İDİ"

Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur. Dünya şöhrətli Şəxsiyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycan qadınları haqqında deyirdi: "Azərbaycan qadını mərd, sədaqətli, qeyrətli, namuslu qadındır. Mən dünyanın çox yerini gəzmişəm, dünya qadınlarını görmüşəm, fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir". Həqiqətən də Azərbaycan qadınları dünyada yaxşı nə varsa ona layiqdir. İnsanlığa və insanlara qiymət verməkdə mahir, səriştəli olan Müdrik Siyasətçi Ulu Öndər Heydər Əliyev bu cəhətdən də gözəl sədaqətli həyat yoldaşı, peşəkar alim, qayğıkeş ana, mehriban nənə kimi Zərifə xanımı seçimində yanılmamışdır. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm "

Zərifə xanım Azərbaycan tarixinə məxsusi dəyələri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri onu zəmanəmizin seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyasının nümayəndələri IV Antalya Diplomatiya Forumunda iştirak edirlər

***Aprelin 11-də Türkiyə Respublikası Prezidentinin himayədarlığı ilə bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilən IV Antalya Diplomatiya Forumu (ADF) öz işinə başlayıb.***

Dünyanın 140 ölkəsindən nümayəndələrin qatıldığı Forum çərçivəsində keçiriləcək 50-dən artıq panel iclasında regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən dünyanın müxtəlif bölgələrində münaqişə və müharibələr, terrorizm, iqlim dəyişiklikləri, enerji təhlükəsizliyi və digər problemlər ətrafında fikir mübadiləsi aparılacaq. Forumu açıq elan edən Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan müasir beynəlxalq münasibətlər sistemində xaotik vəziyyətin hökm sürdüyünü vurğulayaraq istər regional, istərsə də qlobal miqyasda sülh və təhlükəsizlik naminə əməkdaşlığın önəmini nəzərə çatdırıb, qabaqcıl ideyalar platforması olan Antalya Diplomatiya Forumunun bu xüsusda əhəmiyyətini vurğulayıb.










Forumda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Xalqların rifah və tərəqqisi naminə beynəlxalq hüquq normalarına uyğun siyasətin vacibliyinə toxunan dövlət başçısı bəşəriyyəti narahat edən qlobal problemlərin həllində diplomatiyanın müstəsna rolunu vurğulayaraq Antalya Diplomatiya Forumunun dünyada önəmli dialoq platforması kimi özünü təsdiqlədiyini bildirib.

Dövlət başçısı Türkiyənin xarici siyasət prioritetlərindən bəhs edərək ölkəsinin ədalətli beynəlxalq siyasi nizamın tərəfdarı kimi bəşəriyyətin firavan gələcəyi naminə dost dövlətlərlə işbirliyini dərinləşdirmək niyyətində və başlıca hədəflərinə çatmaq iqtidarında olduğunu söyləyib.

Yeni Azərbaycan Partiyasının nümayəndələri Forumun ilk günündə keçirilən bir sıra panel iclaslarına qatılıblar.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Forumun yüksək səviyyəli iştirakçılarının şərəfinə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın adından verilən rəsmi ziyafətdə iştirak edib.

IV Antalya Diplomatiya Forumu çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya arasında görüş də keçirilib.

AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala YAP nümayəndə heyətinin qardaş ölkəyə səfəri və Forumda iştirakının Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mötəbər beynəlxalq tədbir kimi Antalya Diplomatiya Forumunun bütün iştirakçı tərəflər üçün faydalı olacağına və səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edərək Forumun işinə uğurlar arzulayıb.

Görüşdə dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf etdiyi və ən yüksək səviyyəyə çatdığı bildirilib. Türkiyə ilə Azərbaycanın beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləməsinin milli maraqların təmini və strateji hədəflərin gerçəkləşdirilməsi baxımından əhəmiyyəti vurğulanıb. 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin həm iki ölkə arasında münasibətlərin inkişafı, həm də regionda çoxtərəfli işbirliyinin dərinləşdirilməsi və təhlükəsizliyin təmini baxımından önəmi diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan-Türkiyə birliyi Türk dünyasında da əməkdaşlığın genişləndirilməsi, xüsusilə də Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində önəmli güc mərkəzi kimi mövqelərinin möhkəmlənməsi və rolunun artması üçün yeni imkanlar yaratmaqdadır.

Görüş əsnasında Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi, 2021-ci il iyunun 2-də imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapmış vəzifələrin uğurla icra olunduğu məmnunluqla vurğulanıb, hakim partiyaların bundan sonra da dövlət maraqlarına əsaslanan milli məqsədləri inamla həyata keçirəcəklərinə əminlik ifadə olunub.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovun da iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# Macarıstan nəşri ADA Universitetinin Xankəndi və Bakıda keçirdiyi beynəlxalq forumdan yazıb

***Macarıstanın ən geniş oxucu auditoriyasına malik olan ingilisdilli "Daily News Hungary" nəşri Bakıda ADA Universitetinin təşkilatçılığı ilə keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum haqqında material dərc edib.***

AZƏRTAC xəbər verir ki, məqalədə bu mötəbər tədbirin missiyası və məqsədləri haqqında məlumat verilir. Materialda builki forumda dörd macar ekspertinin - Laşpo Vaşa, Şandor Şeremet, İştvan Kiş və Zoltan Eqereşinin iştirak etdikləri diqqətə çatdırılır. Onlar müxtəlif akademik institutları və beyin mərkəzlərini təmsil edirlər. Nəşrə müsahibə verən L.Vaşa qeyd edib ki, keçirilən forumun iştirakçıları arasında olmaq, Qarabağa səfər etmək və Prezident İlham Əliyevin çıxışına qulaq asmaq onun üçün faydalı bir imkan olub.


DAILY NEWS HUNGARY POLITICS BUSINESS SOCIETY CULTURE SPECIAL HUNGARY WORLD SPORT NEWS TO GO

## Hungarian scholars took part at the ADA University Policy Forum in Azerbaijan

Guest author: Vugar Seidov

### Hungarian experts in Azerbaijan

Hungarian experts participated in the 7th ADA University Policy Forum in Khankendi and Baku. Hosted by ADA University, University's Institute for Development and Diplomacy (IDD) and the Center of Analysis of International Relations (AIR Center), the annual forums foster critical discussions, fresh perspectives, and forward-thinking solutions for a rapidly evolving global landscape. This forum is a global crossroad for experts and thought leaders. The abbreviation of ADA stands for "Azerbaijan Diplomatic Academy", which was the original name of the school that was later transformed into a full-scale university.

Subscribe to our daily newsletter

happy birthday

*İndiki dövrdə demək olar ki, bütün gənclər təhsil almaq üçün can atır. Hətta bəzi gənclərimiz xaricdə də təhsil almağa üstünlük verirlər. Bəs gənclərimizin təhsilə marağı və baxışı hansı səviyyədədir? SİA bu barədə tələbələr arasında sorğu keçirib.*

# Gənclərin təhsilə marağı hansı səviyyədədir?



**Tələbə Könül Əliməmmədova:** "Universitet dərslərinin praktik formada keçirilməsi və bu istiqamətdə inkişaf etdirilməsi, fikrimcə, olduqca vacibdir. Məsələn, mən özüm hazırda tərcümə ixtisası üzrə təhsil alıram. Bu sahədə nəzəri fənlər nə qədər çox olsa da, əgər biz onları praktik cəhətdən tətbiq edə bilmiriksə, bu biliklərin əhəmiyyəti azalır. Yəni nəzəri olaraq müəyyən prosesləri öyrənsək də, onları real şəraitdə, praktikada həyata keçirə bilmədikdə, bu zaman peşə fəaliyyətində müəyyən çatışmazlıqlar hiss olunur və bu da peşəkarlığın səviyyəsini aşağı sala bilər. Tərcümə sahəsini nümunə olaraq götürsək, hər hansı bir əsərdə müəyyən səslərin, sözlərin transkripsiyası və transliterasiyası haqqında nəzəri məlumatlara malik olmaq mümkündür. Lakin bu biliklərin praktikada necə tətbiq olunacağı, konkret mətnlərdə, kontekstlərdə necə istifadə ediləcəyi barədə təcrübə olmadıqda, həmin biliklərin faydası məhdud qalır.




Bu səbəbdən düşünürəm ki, universitetlərdə praktik dərslərin daha geniş şəkildə keçirilməsi, tədris prosesinin praktik yönümlə zənginləşdirilməsi olduqca vacibdir. Təbii ki, nəzəri fənlərin proqramdan çıxarılmasından söhbət getmir, sadəcə olaraq, nəzəri biliklərin praktikada necə tətbiq olunduğuna dair dərslərin artırılması, tələbələrə bu istiqamətdə daha çox imkan yaradılması məqsədəuyğundur. Çünki gələcəkdə iş həyatında da insanlardan nəzəri biliklərdən çox, həmin bilikləri necə tətbiq etdikləri soruşulur və buna əsasən dəyərləndirmə aparılır".

**Tələbə Zivər Hüseynova:** "Fikrimcə, ənənəvi dərs sistemi ilə kurikulumun, yəni interaktiv metodlardan və yeni təlim üsullarından istifadənin hərəsinin öz yeri var. Tam olaraq ənənəvi metoddan imtina edib yalnız yeni təlim metodlarına və texnologiyalarına yönəlmək doğru olmaz. Ənənəvi təlimin öyrədici xarakter daşıdığını nəzərə alsaq, bu metoddan tamamilə imtina etmək təhsil sistemində müsbət aura yaratmaz. Eyni zamanda, interaktiv təlim üçün də bu keçərlidir. Bildiyimiz kimi, interaktiv təlim şagirdin və tələbənin inkişafına şərait yaradır. Bu, şəxsiyyətyönümlü təhsil sistemidir. Ənənəvi təlimi tamamilə təhsil sistemindən kənarlaşdırıb yalnız interaktiv metodlarla dərslər keçsək, təhsil sistemində bərabərsizlik yaranar. Ənənəvi təlimdə müəllim aparıcı mövqeyə malik olur, şagird isə əsasən dinləyici rolunu oynayır. Yeni təlimdə isə əksinədir: müəllim bələdçi rolunu oynayır, şagird isə aktiv iştirakçı olur.



Bunu nəzərə alaraq, dərs müddətində həm ənənəvi, həm də yeni təlim metodlarından istifadə oluna bilər. Çünki dərsdə şagirdlərə bir şey izah etmək lazım gəlir və bu zaman müəllim aktiv rola malik olur. Müəllimlər dərs prosesi zamanı hər iki metoddan istifadə etməyi bacarmalıdırlar. Çünki bu metodlar təhsilin bir komponentidir və yalnız birini istifadə etmək təhsilə mənfi təsir göstərə bilər".

**Tələbə Aysu İsmayılzadə:** "Təhsil insan həyatında böyük rol oynayır. Təhsil həm şəxsi inkişaf, həm də iş tapmaq üçün vacibdir. İnsan yeni biliklər qazandıqca dünyaya baxışı dəyişir, özünü ifadə etməyi öyrənir və daha inamlı olur. Eyni zamanda, təhsil peşəkar həyatda da önəmlidir. Yaxşı təhsil almış insan daha asan iş tapa bilər, çünki şirkətlər bilikli və bacarıqlı insan axtarır. Təhsil alan insan cəmiyyətə də daha faydalı olur. O, həm şəxsi arzularına çatır, həm də maddi baxımdan uğur qazanır. Hər kəsin məqsədi fərqli ola bilər, amma təhsil hər sahədə lazımdır. Məncə, təhsil həm şəxsi inkişaf, həm də iş həyatı üçün vacibdir. İkisindən birini seçmək lazım deyil, hər ikisi birlikdə olmalıdır. Bundan əlavə, təhsil insanın düşünmə və qərar vermə qabiliyyətini də artırır. Yeni mövzular öyrəndikcə insan tənqidi düşünməyi və problemləri daha düzgün şəkildə həll etməyi bacarır. Təhsil insana yalnız kitab bilikləri deyil, eyni zamanda həyat bacarıqları da qazandırır. Məsələn, ünsiyyət qurmaq, komanda ilə işləmək, liderlik etmək kimi bacarıqlar da təhsilin bir hissəsidir. Bu bacarıqlar həm şəxsi münasibətlərdə, həm də iş həyatında uğur qazanmaq üçün vacibdir. Beləliklə, təhsil insanın həyatına hər tərəfli təsir edir. Bu səbəbdən, hər bir insan təhsilə vaxt və enerji ayırmalı, davamlı olaraq öz üzərində çalışmalıdır. Çünki öyrənmək heç vaxt bitmir və hər yeni bilik insanı bir addım irəli aparır".



**Tələbə Xanım Cənnətova:** "Əslində, tələbələr arasında rəqabətin həm müsbət, həm də mənfi tərəfləri mövcuddur. Bir tərəfdən, rəqabət insanda irəli getmək, daha yaxşı olmaq arzusu yaradır. Kimsə dərsi yaxşı oxuyanda, digərləri də çalışır ki, geri qalmasın. Bu da bir növ motivasiya rolunu oynayır. Lakin hər şeyin bir dozası olmalıdır. Əgər rəqabət xəstəlik halını alarsa və insanlar bir-birinə düşmən kimi baxmağa başlasa, bu artıq təzyiqə çevrilir. Bəzən elə tələbələr olur ki, yalnız qiymət uğrunda yarışırlar, amma əsl bilik qazanmırlar. Bu da uzun müddətdə heç bir fayda vermir. Digər tərəfdən, kiminsə uğuru digərini ruhdan sala bilər. "O hər şeyi bacarır, mən isə yox" düşüncəsi yaranır və bu, motivasiya yerinə, stresə gətirib çıxarır.



Amma sağlam rəqabət mühitində böyüyən tələbələr bir-birinə kömək etməyi də öyrənirlər. Bir dostunun yaxşı nəticə göstərməsi digərinə də təkan verir. Tələbələr özlərini sınayır, bacarıqlarını kəşf edirlər. Əsas odur ki, bu yarış özünü sübut etməyə yönəlik olsun, başqalarını keçməyə yox. Yəni, sonda bu sualın cavabı bir az da tələbənin xarakterindən və mühitdən asılıdır. Kimi üçün rəqabət motivasiya, kimi üçünsə təzyiqdir. Amma balans qorunarsa, rəqabət çox şey öyrədə bilər".

**Tələbə Elcan Xəlili:** "İmtahanlar bizə nə öyrəndiyimizi yoxlamağa kömək edir. Amma bəzən imtahanlar bizi stressə salır. Həyəcanlanan tələbə bildiyini də unuda bilər. Elə tələbələr var ki, dərsi yaxşı bilir, amma imtahanda yaxşı yaza bilmir. Bəziləri isə sadəcə əzbərləyir, amma dərsi başa düşmür. Belə olduqda, imtahan nəticələri həqiqi bilikləri tam göstərmir. Əsl bilik anlayaraq öyrənməkdir. Əgər biz öyrəndiklərimizi gündəlik həyatda tətbiq edə biliriksə, deməli, o bilik doğrudur. İmtahanlar isə, sadəcə, bir ölçü vasitəsidir. Bu vasitə hər zaman doğru nəticə verməyə bilər.



Məncə, bilikləri ölçmək üçün təkcə imtahan yox, başqa yollar da olmalıdır. Məsələn, layihələr, təqdimatlar və ya gündəlik qiymətləndirmələr. Belə olduqda, tələbənin nə qədər bildiyi daha düzgün görünər. Sonda demək istəyirəm ki, imtahanlar vacibdir, amma onlar tək və tam bilik ölçüsü deyil".

**Tələbə Nuray Paşşanlı:** "Distant təhsil, müəyyən üstünlükləri və çətinlikləri ilə effektiv ola bilər. Ən böyük üstünlüyü, tələbələrə zaman və məkan baxımından elastiklik təmin etməsidir. Bu, iş və ailə məsuliyyətləri olanlar üçün əlverişlidir və dünya miqyasında müxtəlif kurslara qoşulmağa imkan verir. Lakin bu təhsil üsulu müstəqil öyrənmə bacarığı tələb edir və bəzi tələbələr dərslərə daha az diqqət ayıra bilərlər, çünki müəllimlə birbaşa əlaqə qurmaq çətindir. Eyni zamanda, sosial inteqrasiya və qrup işləri kimi təcrübələr azalır.



Distant təhsil, güclü internet bağlantısı və müasir texnologiyalar tələb edir; bu, zəif interneti olan və ya köhnə cihazlardan istifadə edən tələbələr üçün çətin ola bilər. Bundan əlavə, bu təhsil forması daha sərfəli ola bilər, çünki əlavə xərclər azaldılır. Ancaq bəzi sahələrdə, məsələn, tibb və praktiki bacarıqlarda distant təhsil daha az effektiv ola bilər. Ümumilikdə, distant təhsil tələbənin motivasiyasından, təhsil sahəsindən və texnologiyalardan asılı olaraq effektiv ola bilər".

SORĞU

***Günel Fərzəliyeva***

# "Azərbaycanın Prezidentinin "Yeni dünya nizamına doğru" forumunda tənqidləri tamamilə haqlıdır"

***Rusiya Beynəlxalq Əlaqələr Şurasının proqram meneceri Milan Lazoviç "Moskva-Baku" portalına müsahibəsində Azərbaycan Prezidentinin "Yeni dünya nizamına doğru" forumunda xarici siyasət prosesləri ilə bağlı səsləndirdiyi bəyanatlarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***




***- Milan Svetislavoviç, Azərbaycan Prezidentinin iştirakı ilə Bakıda keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumla Azərbaycan mütəmadi olaraq yeni dünya nizamı məsələsini gündəmə gətirir. Prezident İlham Əliyev Forumda cari geosiyasi proseslərlə bağlı mövqeyini açıqladı. Azərbaycan Respublikasının bu istiqamətdəki beynəlxalq fəaliyyətini necə şərh edə bilərsiniz?***

- İndi dünya elə bir mərhələyə qədəm qoyub ki, qloballaşma prosesindən sonra biz əks tendensiya müşahidə edirik: dünya tədricən milli oriyentasiya ideyasına qayıdır. Və bu ideyanın tərəfdarları getdikcə daha çox olur. Bunlar qloballaşma, inteqra-



siya birlikləri, transmilli korporasiyaların və s. maraqlarını deyil, öz milli maraqlarını üstün tutan dövlətlərdir. Və təbii ki, bu tendensiyalar Cənubi Qafqaz regionunda da öz əksini tapır və mənim fikrimcə, Azərbaycan bizim dövrümüzdə belə bir dövlətin ən parlaq nümayəndələrindən biridir. Məhz bu, onun həm regional, həm də qlobal səviyyədə yeni dünya nizamının formalaşmasında iştirak etmək, öz töhfəsini vermək marağını diktə edir. Azərbaycan mütəmadi olaraq daha ədalətli dünyanın, istənilən hegemonluğun və dövlətlərin işinə müdaxilənin aradan qaldırılmasının tərəfdarıdır.

***- Bu baxımdan Azərbaycan prezidenti yenidən Qərbi tənqid etdi. Birincisi, o, Baydenin dövründə ABŞ-ın anti-Azərbaycan siyasət yeritməsinə diqqət çəkib və ümid etdiyini bildirib ki, Trampın dövründə Bakı ilə Vaşinqton arasında münasibətlər daha konstruktiv olacaq, çünki Amerika lideri milli yönümlü prezidentdir... İkincisi, Əliyev qeyd edib ki, bəzi Avropa ölkələri Transqafqazda bölücü xətlər yaratmağa çalışırlar. Avropa ilə Mərkəzi Asiya arasında körpü olan Azərbaycanı kənara itələyirlər. Və o, belə dağıdıcı məqsədlər qoyanların onsuz da heç vaxt uğur qazana bilməyəcəklərinə inandırıb. Azərbaycan dövlətinin başçısı Avropa Komissiyasına da reallığı qəbul etməyi, Cənubi Qafqaz dövlətlərini sevilən və sevilməyənlərə bölməməyi tövsiyə edib...***

- Azərbaycanın Prezidentinin tənqidləri tamamilə haqlıdır. Qərbin Cənubi Qafqaz və ya hər hansı digər regionun işlərinə müdaxiləsi, bir dövləti digər dövlətə qarşı dəstəkləmək cəhdləri ilə sabitliyi və təhlükəsizliyi tam təmin etmək mümkün deyil. Kənar oyunçular regional proseslərə dağıdıcı şəkildə müdaxilə etməməlidir. Yalnız region dövlətləri arasında hərtərəfli qarşılıqlı fəaliyyət əlverişli təhlükəsizlik arxitekturasının və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın formalaşmasına gətirib çıxara bilər. Rusiya da eyni ideyaları təbliğ edir.

Beləliklə, Azərbaycan Qərbin regionun işlərinə müdaxiləsini tənqid etməklə milli komponentin prioritet hüququnu elan edir. Bu məntiq əsaslı və konstruktivdir.

Azərbaycanla ABŞ, Cənubi Qafqaz və ABŞ arasında münasibətlərə gəlincə, təbii ki, Bakı bütün dövlətlərlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə mənfi deyil, müsbət münasibətlərin olmasında maraqlıdır. Azərbaycanda hazırda USAİD-in ölkənin işlərinə və hökumətin işinə müdaxiləsi ilə bağlı cinayət işi aparılır. İlham Əliyevin elan etdiyi kimi, bu araşdırmanın nəticələri Tramp administrasiyasına göndəriləcək. Bu, ABŞ daxilində siyasi mövqeyini gücləndirmək üçün əlavə stimul kimi hazırkı Amerika liderinin əlinə keçəcək. Ümumiyyətlə, hesab edirəm ki, Amerikanın yeni administrasiyası ilə Azərbaycan arasında münasibətlər kifayət qədər konstruktiv və açıq olacaq. Daha əvvəl dediyim kimi, Tramp administrasiyası Bayden administrasiyasına xas olan eyni ideoloji məqamlara malik deyil. Tramp sərt praqmatistdir və o, ilk növbədə Azərbaycanla əməkdaşlığın iqtisadi maraqlarına baxacaq. Və görürük ki, Azərbaycan tərəfində də eyni yanaşma hökm sürür: praqmatik, milli maraqlara söykənən. Təbii ki, Azərbaycanın aparıcı dünya dövlətlərindən biri kimi ABŞ-la əlaqə saxlaması, əməkdaşlıq etməsi faydalıdır. Respublikanın geosiyasi mövqeyini nəzərə alaraq, ABŞ üçün Azərbaycan da bu baxımdan maraqlıdır.

***- Azərbaycan Prezidenti forumda Ermənistan-Azərbaycan nizamlanmasındakı vəziyyətdən də danışdı. Əsas tezis isə ondan ibarət idi ki, Ermənistan sülh sazişinin imzalanması üçün Bakının ilkin şərtlərini yerinə yetirməlidir. Bu, ilk növbədə, Ermənistanın Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasıdır. Əliyev qeyd edib ki, Ermənistan bu ilkin şərti yerinə yetirdikdə, o zaman yaxınlaşmadan, hansısa inteqrasiyadan danışmaq mümkün olacaq. Onun sözlərinə görə, aydındır ki, Azərbaycan və Ermənistan birdən-birə dostlaşmayacaq və iqtisadi cəhətdən inteqrasiya etməyəcək. Amma o qeyd edib ki, Bakı Ermənistanla bəzi etimad quruculuğu tədbirləri görməyə hazırdır, bəlkə də kiçik, amma hazırdır və hətta bu, müzakirə olunub və Ermənistan tərəfinə bəyan edilib.***

- Burada biz Azərbaycanın Ermənistan tərəfi ilə sülh bağlamaqda maraqlı olduğunu aydın şəkildə görə bilərik. Məhz bu ritorika Bakının sülhün əldə edilməsinə, uzun müddətdir davam edən münaqişəyə son qoyulmasına və regionda yeni təhlükəsizlik arxitekturasının və iqtisadi inkişaf sisteminin qurulmasına başlamasına qətiyyətlə sadiq olduğunu nümayiş etdirir. Eyni zamanda, rəsmi Bakı üçün müqavilənin bağlanması ilə bağlı fundamental məqamlar var. Birincisi, Ermənistan Konstitusiyasına dəyişikliklərdir. İkincisi, Qarabağda münaqişənin başa çatması ilə öz məqsədini itirmiş ATƏT-in Minsk Qrupunun qanuni şəkildə ləğvi. Ona görə də bu, konfliktin rudimenti, əks-sədası hesab olunur. Və İlham Əliyev bir daha nümayiş etdirdi ki, bu şərtlər yerinə yetirilərsə, Azərbaycan Ermənistanı yarı yolda qarşılamağa hazırdır və İrəvanla qarşılıqlı faydalı əməkdaşlığa hazırdır. Prinsipcə, bu, Ermənistan tərəfi üçün də sərfəlidir, çünki o, məsələn, tranzitdən gəlir əldə edə bilərdi. Hazırda tranzit Gürcüstan ərazisindən keçir. Ortaq dil tapmaq üçün Bakıdan İrəvana açıq çağırış var.

Eyni zamanda, görünən odur ki, Ermənistan hələ də hansısa axtarışda, hansısa siyasi qeyri-sabitlik içərisindədir. Məlum olduğu kimi, Ermənistan daxilində və erməni diasporunda heç də hamı Paşinyanın kursunu bölüşmür. Göründüyü kimi, Ermənistan elə bir vəziyyətdədir ki, hansı istiqaməti tutacağına hələ qərar verməyib. Ya Azərbaycanla sülh müqaviləsi bağlamaq və münasibətləri normallaşdırmaq, ya da Qərb dövlətləri ilə əməkdaşlığı gücləndirməklə yanaşı, onun "təcrid" və bağlı sərhədlərini saxlamaq məqsədi daşıyır. Və Yerevanın bu mövqeyi də təəssüf ki, sülh danışıqları prosesini ləngidir.

***- İlham Əliyev onu da qeyd etdi ki, onun fikrincə, təkcə revanşist Qarabağ klanı deyil, həm də Ermənistan müxalifətindəki "sakit" revanşistlər və Ermənistanda iqtidarın özü də Qarabağ məsələsinin hüquqi tərəfinin "təmizlənməmiş" qalması üçün hər şeyi edir. Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan mövqelərini mütəmadi olaraq atəşə tutması və Ermənistan hakimiyyətinin Qərb ölkələrində Qarabağ ermənilərı məsələsini gündəmə gətirməsi də suallar doğurur...***

- Buna baxmayaraq, Nikol Paşinyan "Qarabağ klanı"ndan uzaqlaşmağa çalışır və öz oyununu oynayır, sülhü alqışladığını, danışıqlar prosesini davam etdirmək, Azərbaycanla münasibətləri normallaşdırmaq istədiyini rəsmən bəyan edir. Və çox güman ki, etdiyi işlərə səmimiyyətlə inanır.

Sərhəddə vaxtaşırı gərginləşmələrə və Qərbdə Qarabağ erməniləri məsələsini gündəmə gətirmək cəhdlərinə gəlincə, görünür, bu, Ermənistanın indiki siyasi sistemi daxilində bir növ yerli təşəbbüsü əks etdirir və Qərb ölkələrində bu rəvayətləri təbliğ edir. Bununla belə, belə bir fikir var ki, Paşinyan Bakı ilə sülhün imzalanmasına qətiyyətlə sadiqdir. Onun bütün siyasi addımları bundan danışır.

***Tərcümə - Elçin Bayramlı***

# Hərbi Qənimətlər Parkı:
## Azərbaycanın suverenlik simfoniyası

***Dörd il əvvəl Bakıda-Dənizkənarı Milli Parkda Azərbaycan Silahlı Qüvvələrinin 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində qazandığı qələbəyə həsr olunan Hərbi Qənimətlər Parkı yaradıldı. Parkda Ermənistan Silahlı Qüvvələrinə məxsus olduğu bildirilən tank, "Qrad" qurğuları, top və digər müharibə texnikası burada yer alır. Prezident İlham Əliyevin "Qələbə" tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir.***

2021-ci ilin 12 aprelində yaradılan bu parkda ümumilikdə müharibə, döyüş meydanı təəssüratı yaradan mənzərələrlə hər addımda rastlaşır və hər addımda qürur duyur insan.

***

Bura həmişə küləklidir. Dənizdən əsən külək dünən müharibədə od püskürən, bugünsə yerindən tərpənməyə cəsarəti olmayan, indi sadəcə dəmir parçası ömrünü yaşayan hərbi qənimətlərin üzərinə hücum çəkərkən bu vıyıltıda 44 günlük payızın sazağını duyuram. Qarabağa-müharibəyə qayıdıram. Qulağıma savaş meydanındakı səslər gəlir, bu silah-sursat, texnikaların fonunda və hərdən küləyin üzümə vurduyu şillələrdə 44 günün 1-ni yaşayıram.








### 27 sentyabr-10 noyabr... 44 gün

Bilmirəm, bu 44 günün hansındayam. Amma orada-Qarabağda müharibə meydanındayam. Suqovuşanda, Füzulidə, Xudafərindəyəm, Zəngilan, Qubadlı, Şuşadayam, Ağdam, Kəlbəcər, Laçındayam, bilmirəm, haradayam, amma döyüş meydanındayam. O payızın qonağıyam Qarabağda. Havada heç günəş yoxdur. Amma onun bir doğuşuna elə ehtiyac var ki... Hava həddindən artıq soyuqdur. Hər tərəf bomboz dağlar, dərələr, düzənliklər-otuz ilin həsrətliləridir. Onları seyr etdikcə sanki mənimlə danışırlar: günəş nədir arzulayırsan? Məgər bu ellərdə 30 ildir günəş doğur? Qovmuşuq onu buralardan. Biz özümüzü soyuğa, sazağa, qaranlığa vermişik. Vətəndən ayrı günəşmi doğar? Qovmuşuq günəşi, "get, biz anamızın qoynuna qayıdanda gəlib üzümüzə doğarsan, işığını hiss edərik, hərarətini duyarıq",- demişik. Bax bu səbəbdən də burada nə günəşi axtar, nə doğmasını arzula...

Günəşdən əlimi üzür, ətrafı seyr edirəm. Sazaq ağaclardakı rəngini sarıya döndərməkdə olan yarpaqları ora-bura əsdirməkdən heydən salır. Yorğunluqları lap kənardanca hiss olunur. Yerdəki ot-alaf da eynilə ağaclardakı yarpaqların taleyini yaşayır. Küləyin əsarətindədir, onun hökmünə tabedirlər.

"Burada bahar görəsən necə olur",- deyə düşünürəm. Sanki ətraf ürəyimdən keçənləri oxuyur, sazağını şillə edib üzümə çırpır və bahar nədir, bu yerlər 30 ildir baharı qovub buralardan: biz yaşıllı, allı-güllü baharı, yayı payıza, qışa qurban vermişik. Payızdan, qışdan solğun rənglər alıb bahara, yaya libas tikmişik. Onu da payız etmişik. Biz baharın bu yerlərə gəlişini Vətənə dönənə saxlamışıq. Əlimiz Vətənin əlinə çatanda o əllərlə soyunduracağıq payız rəngli libasını baharın. O əllərlə geyindirəcəyik əyninə alça, ərik çiçəyitək ağappaq donunu, salaçağıq başına şaftalının çəhrayı çiçəyi rəngdə kələğayısını... yaşıl rəngi əllərimizlə don biçəcəyik bu dağlara, bu düzlərə, dərələrə... indi bizim rəngimizsə boz, qara, gördüyün bu sarı, bir də həsrət rəngidir...

Təbiətlə bu söhbətdən ətrafdakı qulaqbatırıcı səslər ayırır məni. Belə dəhşətli səsləri ilk dəfədir eşidirəm. Bu səslər hər dəfə yenilənəndə vücudumdan keçir, bütün bədənimi dolanıb sonra bayıra çıxır. Payızın sazağı ilə bu səslər elə bir harmoniya yaradıb ki...

### Payız əsgərimin üzündə bahar

Burada payız müharibədən, müharibə payızdan rəng alıb. Rəngi kimi adamın bədənində qanını donduran soyuğu da eynidir: payızın sazağı, müharibənin soyuğu. Adamın iliyinə işləyir bu sazaq, soyuq. Bir hərarət, bir sızqa gün işığı axtarıram. Yoxdur o, sanki ərşə qalxıb. Bombardmanın dumanı bir anlıq çəkiləndə nəzərlərim əsgərimin üzündə dolaşır və səhərdən bəri axtardığımı tapıram. Torpaq, Vətən uğrunda sinəsini sipər edən əsgərimin üzündə elə bir sevgi var ki, burada bahara oxşar tək o sevgidir. Tək o çöhrələrdə günəş doğur. Tək o üzlərdə işıq var. Bu payızın sazağını da, bu müharibənin dəhşətli səsini də tək o sevgi susduracaq gücə malikdir: payızı bahar edəcək qədər, qaranlığa işıq saçacaq qədər, soyuğu ılıq bir hərarətə çevirəcək qədər...

Səngərdə səhəri axşam, axşamı səhər edir əsgərim. Gecənin qaranlığında od yağışının işığında leysan kimi ələndiyi görünən payız yağmurunda islanır, tərpənmir, elə yerindəcədə dayanır, bədəninin hərarəti ilə əynində quruyur paltarları. Bir an geri çəkilmir. Bu dəhşətli səslərin içərisində hərdən nəğmələr də eşidilir. Vətəndən, anadan, torpaqdan oxuyurlar:

Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qürbət ölkə,
Ölməyə Vətən yaxşı.

Qarabağ şikəstəsinin də səsi gəlir uzaq səngərlərdən:

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşamüstü qoy uzaqdan,
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi...

Üzü, qulaqları, əlləri qıpqırmızıdır əsgərimin, sazaq yandırıb, qızardıb. Bu qırmızı rəng nərə çəkən igidimin düşmən üzərinə hücumunun da rəngidir. Nərə səsinin rəngidir. Qarışqarış qələbənin rəngidir. Azad olunan kəndlərdə dalğalanan bayrağımızın rəngidir. Bu rəng payızda bahar rəngidir... Qarabağın payızını bahar edən rəngdir. Vətən, torpaq uğrunda canından keçənlərin torpağı lalələşdirən rəngidir. Bu qan həm də payızda torpağın aclığını doyuran sudur, su rəngidir...

Payız Qarabağ müharibəsinin zaman, məkan, fəsil anlamıdır əbədiyyən. Haqqı unudulmazımızdır. Payız anasıdır bahar üzlü əsgərimin. Yarpağı yastığı, yorğanı, sinəsi ana qoynudur. Budur, şəhidim var, payız ana qoynuna alıb onu, gözlərindən yaş ələyir üstünə. Laylay deyir: bu laylayda həm balasını oxşayır, həm elini. "Sənə qıyan əllər qurusun"la, "Gəlməsəydiniz bu yurdun düşməndə bağrı qan olardı" cümləsi tez-tez bir-birini əvəz edir Payız ananın dilində. O, balasını ağlayır, bir gözündə ələm, birində qürur. Birində əbədi kədər, birində əbədi torpaq vüsalı. Hicranı didib dağıdan o vüsal. Şəhidimin qanı rəngindəki vüsal. Əsgərimin gözünü yumduğu qara rənglə ruhunun pərvazlandığı ağ və mavi rənglər arasındakı qəhrəmanlığın, ölməzliyin bəxşişi vüsal... Qarabağın qara bəxtindəki ağ rəngli vüsal...

### Od puskürən silahlar

Yenə də bilmirəm, torpaqlarımızın hansındayam. Amma 44 günlük müharibənin bir günündə oradayam. Müharibə meydanında dəhşətli səslər var. Bu səslər od püskürən, ömürləri yarımçıq qoyan zireh, artilleriya, qoşqu və silah-sursatlardan çıxır. 30 ilin əvvəlində-Birinci Vətən Müharibəsində torpaqlarımızın işğalına fərman verənlərin istəkləri naminə düşməni təchizatlandırdıqları silahların on, iyirmi qat artığıdır bu silahlar. Dayanmadan-durmadan od püskürürlər. O avtomobillər 30 ildə torpaqlarımızda düşmən istehkamlarının yaradılmasına, səngərlərin qazılmasına, minaların basdırılmasına xidmət edib. Bizim torpaqlarımızda bizlərə təhlükə yaratmaq üçün istifadə edilib.

Bu silahların burnunda soydaşlarımız Qarabağdan-öz doğma ata-baba yurdlarından didərgin salınıb. Gecənin yarısında bu silahların dəhşətli səsi vahimə ilə girib evlərə. Ömürləri yarımçıq qoyub, körpələri qanbağır edib, onların məsum dünyasına zərbələr endirib. Bu silahlar 30 ildir, yurd təşnəsi çəkib ürəklərə. Səpələyib minlərlə insanı ölkəmizin bölgələrinə. Adlarını köçkün, qaçqın qoyub bu silahlar onların. 30 ildə yalnız yuxularda doğma həyətlərinə qədəm qoyub şuşalılar, laçınlılar, kəlbəcərlilər, ağdamlılar... bu silahlarla zorla evindən çıxarılanlar 30 ildə bayramlarda ağlayıblar, əzizlərinin qəbirlərini ziyarət edə bilməyiblər.

Susdurur əsgərim o silahları. Bir-bir susdurur. Kəndbəkənd, şəhərbəşəhər susdurur. Çevirir od püskürən ağzını düşmənə tərəf, "artıq 90-cı illər deyil",- deyir. Bir addım da irəliyə gələ bilməzsiniz. Qarşınızda güclü Azərbaycan ordusu var. Bu ordunu üstələyə nə casarətiniz, nə də gücünüz çatar. Çıxın bu torpaqlardan, sizin olmayan, tamahınız olan torpaqlardan...

Düşmən silahını, texnikasını qoyub qaçır. Canını əsgərimdən qorumaq üçün qaçır. Çünki qarşısında vətənpərvərlik ruhu iliyinə işləmiş Azərbaycan gənci var. Bu qüdrətli ölkənin sərkərdəsi var. Həmrəy insanları, bir əmrlə hər biri Qarabağa yollanacaq insanları var. Bir də Qələbəyə, Zəfərə gedən yolda qısa bir yolçuluq var. Silahların, zirehlərin, texnikaların səsi qulaqlarımda çığnayır. Küləyin səsi də bu səslərə yoldaşlıq edəndə bir anlıq düşüncələrdən ayrılır, müharibədən Hərbi Qənimətlər Parkına qayıdıram...

### Təkərlərdə quruyan palçıqdan Qarabağın ətri gəlir

Qarşımda Zəfər var, onu seyr edirəm, qələbənin o heyrətamiz dadını yenidən dadıram. Ətrafım göz baxdıqca uzanan ərazidə hərbi qənimətlərlə doludur. Od püskürən silahlar necə də susub. Onların gücü əllərindən alınıb, cəsarətsizləşiblər. Sadəcə dəmir parçalarına çevriliblər. Beş il öncə üstümüzə hücumla gələn, yüzlərlə igidimizin ömrünü, arzularını yarımçıq qoyan silahlar... Yüzlərlə igidimizin sağlamlığını əlindən alan silahlar. Yüzlərlə ananın göz yaşı, atanın əyilmiş qəddi olan silahlar... Yüzlərlə balanın atasızlığına səbəb, yüzlərlə qadının sevdiyini əlindən alan silahlar... Müharibədən sonra onlarla dünyaya gələn uşağın ata üzünü görməsini əngəlləyən silahlar... Neçə-neçə nişanlı qızın hicran dağı silahlar... Necə də susublar. Sanki bütün bunları edən onlar deyilmiş. Gəncədə, Bərdədə, Ağdamda günahsız insanların qətlinə hökm verən deyilmişlər. İnsanların qurulu evlərini dağıdan deyilmişlər. Həyət-bacalarında işlədikləri yerdəcə ömürlərini tamamlayan deyilmişlər...

Düşmən silahlar... Yağıların əlləri dəyən, nəfəsləri içərisinə dolan murdar silahlar. Yeni torpaqların işğalı üçün düşmən əmrini yerinə yetirən silahlar... Baxdıqca Zəfərimiz üçün qürur duyduğum, itkilərimiz üçün susqunluqlarından belə qisas almaq istədiyim silahlar, texnikalar, avtomobillər...

Bütün bu düşüncələrin fonunda gözlərim tankların, avtomobillərin, qoşquların təkərlərinə sataşır. Qurumuş palçıqlar düşüncəmə hakim kəsilir. Bu texnikalar düşmənindir, ancaq o palçıq bizimdir. Bizim torpaqların 44 gündə payız yağışları ilə islanıb palçıqlaşan parçasıdır. Əlimi atıb o palçıqdan bir parça qoparıb, əlimdə ovxalayıram, burnuma tərəf yaxınlaşdırıram. İlahi, bu palçıq qurusu Suqovuşan, Füzuli, Xudafərin, Zəngilan, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər, Laçın... qoxur. Nə qədər doğma isti saçır. Bu munis duyğu bir az öncə parçalamaq istədiyim texnikaların əslində günahının olmadığını anladır mənə: onlar cansızdır, kimlərinsə iradəsi ilə hərəkət etdirilən əşyalardır. Nə yazıq ki, bəxtlərinə erməni kimi murdar məxluqlara məxsusluq yazılıb. Nə xoşbəxtdirlər ki, erməni məhbusluğundan çıxıb belə bir gözəl ölkəyə gətirilmək kimi alın yazına malik olublar. Nə bəxtəvərdirlər ki, üzərlərində biz millətin bir ovucu üçün canını verməyə hazır olduğu torpaq var.

***

Qürur parkı-Hərbi Qənimətlər Parkı. 30 il torpaq həsrəti ilə yaşayan soydaşlarımızın, bir qarış torpağını düşmən tapdağı altında qoymayan azərbaycanlıların iftixar parkı. Tarixin fəxarət səhifəsi, 300 ilədək zaman kəsiyindən sonra bütövləşmiş Azərbaycanın suverenlik simfoniyası -Hərbi Qənimətlər Parkı.

***Mətanət Məmmədova***

# Çin alternativ ticarət yolları axtarışında

## *Amerika iqtisadi cəhətdən qeyri-sabitlik və təhlükəli mərkəzə çevrilir*

**Çin açıq şəkildə, Donald Trampın təbirincə desək, onlar üçün daha yaxşı beynəlxalq ticarət şərtiti tələblərinə hazır olan vassal ölkələrin növbəsinə qoşulmaq istəmir. Buna görə də Amerika administrasiyası Çini ABŞ-la ticarət danışıqlarına razılıq verməyə inandırmağa başlayıb. Ticarət münaqişələrinin kəskinləşməsi təhlükəsi neftin qiymətini 59 dollar/barel həddindən uzaqlaşdırıb. Neftin qiymətinin aşağı düşməsinin qurbanları Rusiya və Səudiyyə Ərəbistanının büdcələri olub ki, bunun üçün balanslaşdırılmış büdcə yalnız 90 dollar/barel səviyyəsində əldə edilə bilər. İndi səudiyyəlilər yeni xarici kredit mənbələri axtarmağa məcburdurlar. Bunu analitiklər də təsdiq edirlər.**

ABŞ-ın maliyyə maziri Scott Bessent Çinin danışıqlar masasına oturmaq əvəzinə Amerika idxalına tarifləri 84%-ə yüksəltməsindən təəssüfləndiyini bildirib. ABŞ rəsmisi deyib ki, Çinin həqiqətən də danışıqlar aparmaq istəməməsi təəssüf doğurur. Bu həftənin əvvəlində Çin rəsmiləri Vaşinqtonun yeni ticarət siyasətinə ticarət kəsiri və ya tarif maneələrinin ölçüsü ilə bağlı mübahisə kimi baxmadıqlarını açıqladılar. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Lin Jian bazar ertəsi günü bildirib ki, Birləşmiş Ştatların birtərəfli qaydada "qarşılıqlı tariflər" tətbiqi ölkələri, xüsusən də Qlobal Cənubdakı ölkələri inkişaf hüququndan məhrum edir və şübhəsiz ki, beynəlxalq ictimaiyyətin geniş etirazı ilə qarşılaşacaq. Başqa sözlə, Pekin ABŞ-ın münaqişəsinə vassallıq və Amerika ilə





rəqabət hüququ kimi baxdığını açıq şəkildə bildirib. Bu yanaşma ilə, qismən vassal mövqedə güzəştə getmək Pekin üçün açıq-aşkar üzünü itirmədən praktiki olaraq qeyri-mümkün olub. Bu baxımdan Çin üçün ABŞ-ın təmsil etdiyi qeyri-sabitlik adasından yan keçərək sabit beynəlxalq ticarət əlaqələri sisteminin qurulması vəzifəsi aktuallaşır.

Buna görə də Çin prezidenti Si Cinpin bir daha insanlara Amerikanın mütləq qlobal hökmranlıq siyasətinə Çin alternativini xatırladıb. Çin rəhbəri qonşu ölkələr üçün ortaq gələcək icması yaratmağa və qonşu ölkələrlə işdə yeni üfüqlər açmaq üçün səy göstərməyə çağırıb. Pekində keçirilən görüşdə Çin rəsmiləri vurğulayıblar ki, Çinin geniş ərazisi və uzun sərhədləri qonşu ölkələri milli inkişaf və rifah üçün mühüm təməl, milli təhlükəsizliyin təmin edilməsində əsas amil, ölkənin diplomatik işinin ümumi vəziyyətində prioritet sahə, bəşəriyyət üçün ortaq gələcəyi olan icmanın qurulmasında həlledici həlqədir. Sinxua xəbər verir ki, Çin liderləri qonşu regionlara qlobal kontekstdə baxmağa və qonşu ölkələrə qarşı işin effektiv idarə olunması üçün məsuliyyət hissi və missiyanı gücləndirməyə çağırıblar.

Amerika prezidenti həmçinin digər ölkələrlə bərabərhüquqlu iqtisadi danışıqlar aparmaq istəmədiyini bildirib. Tramp Amerika tarifləri ilə bağlı Birləşmiş Ştatlardan ticarət razılaşması istəyən ölkələri rədd edib. "Bu ölkələr bizə zəng edib yalvarırlar, bu doğrudur. Onlar sövdələşməyə can atırlar. Zəhmət olmasa, bizimlə bir sövdələşmə edin. Mən hər şeyi edəcəm", deyən Amerika prezidenti əlavə edib ki, biz mütləq onlarla razılaşmaq istəmirik. Gündə 2 milyard dollar idxal rüsumumuzu əldə edərək əlimizdə olanlardan razıyıq, lakin onlar bizimlə razılaşmaq istəyirlər.

Pekinin Amerika tiranlığından müstəqil olacaq alternativ beynəlxalq ticarət sistemini qura bilib-bilməyəcəyi hələ də qaranlıq qalır. Lakin hətta onun yaxın vaxtlarda ən yaxın müttəfiqləri də Birləşmiş Ştatlarla iş görmək istəmədiklərinin açıq əlamətlərini nümayiş etdirirlər. Xüsusilə, Avropada Amerika silahlarının alınması ilə bağlı tənqidlər artmaqdadır. Avropalı alıcılar ABŞ-ın özbaşına hərəkətlərindən anormal dərəcədə asılı vəziyyətə düşüblər.

Danimarka parlamentinin müdafiə komitəsinin rəhbəri Rasmus Jarlov deyib ki, "Biz qabaqcıl Amerika silahlarını aldıqda, bu o deməkdir ki, onlar o silahları götürə bilərlər, çünki onlar o qədər inkişaf etmişlər ki, proqram təminatının yenilənməsinə ehtiyac duyurlar". Rasmus Jarlov davam edir: "Onların uça bilmələri üçün davamlı ehtiyat hissələri axınına ehtiyacları var. Və reallıq budur ki, amerikalılar sadəcə ehtiyat hissələri və təkmilləşdirmələri təmin etməməklə F-35-ləri çox və çox tez yararsız hala sala bilərlər. Beləliklə, qabaqcıl Amerika sistemlərinə sahib olanda biz daha həssas oluruq. Bu səbəbdən mən bu sistemlərdən daha çox almağa cəsarət etməzdim. Bizi təhdid edən və almayanların hamısından daha çox silah almağa üstünlük verərdim".

Amerika və ətrafındakılardan ibarət olan dünyaya Çin alternativi ortaya çıxana qədər dünya əmtəə qiymətlərinin düşməsini görməkdə davam edir. Tramp "qarşılıqlı" tarifləri elan etdikdən sonra qlobal neft qiymətləri artıq 25% ucuzlaşıb. Və belə bir eniş açıq şəkildə "qara qızıl" ixrac edən bütün ölkələrin büdcəsinə zərbə vuracaq. Düzdür, Brent barel fyuçerslərinin birja qiymətləri açıq-aydın 59 dollar səviyyəsindən geriləyərək 60 dollar həddinin üzərində möhkəmlənməyə başladı. Rusiyanın Urals nefti 50 dollara yaxın qiymətə satılır ki, bu da indiyədək ÜDM-in 1%-i kimi tamamilə məqbul səviyyədə qalan Rusiya büdcəsinin problemlərini pisləşdirəcəyini vəd edir. Müqayisə üçün qeyd edək ki, Səudiyyə Ərəbistanının cari il üçün rəsmi təsdiqlənmiş büdcə kəsiri ÜDM-in 2,5%-ni təşkil edir. İlkin məlumatlara görə, 2025-ci ilin yanvar-mart aylarında federal büdcə 2,2 trilyon rubl və ya ÜDM-in 1%-i kəsirlə icra edilib, Rusiya Maliyyə Nazirliyi bildirir. Cari ilin büdcə qanununda ÜDM-in 0,5%-i həcmində kəsir nəzərdə tutulub. Rusiya Maliyyə Nazirliyi cari kəsirin səviyyəsini yanvar ayında xərclərin qabaqcıl maliyyələşdirilməsi ilə izah edir. Rusiya Maliyyə Nazirliyi mart ayında federal büdcənin profisitlə çıxdığını qeyd edir.

Səudiyyə Ərəbistanının büdcəsi ilə bağlı vəziyyət bir qədər pisdir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, Səudiyyə Ərəbistanının büdcəsi neftin qiymətinin 90 dollar/bareldən yuxarı olması ilə balanslaşdırıla bilər. Səudiyyə Ərəbistanı getdikcə daha çox borc almağa məcburdur - dövlət borcu artıq 324 milyard dollara çatıb və 2025-ci ilin əvvəlindən, hətta Trampın tarif müharibəsi başlamazdan əvvəl səudiyyəlilər 14,4 milyard dollarlıq borc istiqrazları buraxıblar. Qərb ekspertlərinin fikrincə, bu il Ər-Riyad borc bazarlarının tez-tez iştirakçısına çevrilə bilər.

### Trampın ticarət siyasətində çatlar

ABŞ prezidenti Donald Trampın başlatdığı "qlobal tarif müharibəsi" öz düşərgəsində ixtilaflara səbəb olub. Milyarder İlon Mask və digər ölkələrə qarşı cari tariflərə əsaslanan iqtisadi repressiyaların arxasında duran baş strateq Peter Navarro artıq ictimai təhqirləri qəbul etməyə başlayıblar. ABŞ mediası isə cənab Mask və Prezident Tramp arasında dərin fikir ayrılığının olduğundan yazırlar. ABŞ əhalisi bu mübahisədə milyarderə meyl edir - əhalinin yalnız dörddə biri idxal rüsumlarından müsbət təsir gözləyir.

Bu həftə ABŞ prezidenti Donald Trampın iki yaxın adamı - milyarder İlon Mask və ABŞ prezidentinin ticarət və istehsal üzrə baş müşaviri Piter Navarro arasında ictimai mübahisə ilə yadda qalıb. Hər şey cənab Navarronun CNBC-yə verdiyi müsahibədə Maskın Tesla-da qazıntı aparması ilə başlayıb. Trampın məsləhətçisinin dediyi kimi, bu markalı elektrik avtomobilləri üçün hissələrin əksəriyyəti xaricdən tədarük edilir: akkumulyatorlar Yaponiya və Çindən, elektronika isə Tayvandan, halbuki yalnız avtomobillərin yığılması Amerika ərazisində aparılır.

Bu istehsalın təşkili sxemi, Navarronun fikrincə, bütün istehsalın ABŞ-da olmasını istəyən prezident Trampın tarif siyasətinə ziddir. İlon Maskın cavabı özünü çox gözlətməyib. Aprelin 8-də amerikalı iş adamı X sosial şəbəkəsində müvafiq şərh yazaraq rəqibini "bir kisə kərpicdən də axmaq" adlandırıb. Mask haqlı olaraq qeyd edib ki, Tesla ən çox Amerika istehsalı olan avtomobillərə sahibdir. "Tesla Amerikanın ən şaquli inteqrasiya olunmuş avtomobil istehsalçısıdır. Navarro özünün uydurma eksperti Ron Varadan (iqtisadiyyat yazılarında Navarronun təxəllüsü) soruşmalıdır", - milyarder deyib. Onun sözlərini statistik rəqəmlər də təsdiqləyir: 2021-ci ildən Tesla ABŞ-da avtomobil istehsalının lokallaşdırılması dərəcəsinə görə American Made Index-də şəksiz liderdir.

Hazırkı prezidentin iki tərəfdarı arasında bu "duel" təsadüfi deyil: Mask bir sıra ölkələr üçün Navarronun işləyib hazırladığı və dəstəklədiyi hədsiz ixrac rüsumlarının tətbiqinə qarşıdır. Mənbələr The Washington Post-a bildiriblər ki, yeni tarif paketi elan edildikdən sonra Mask bir neçə dəfə prezident Trampı bu ideyadan əl çəkməyə inandırmağa çalışıb. Lakin o, Peter Navarronu dinləməyi seçib. Nəticədə milyarder mübahisəni ictimai sahəyə götürmək qərarına gəlib və şəxsi olmaqdan çəkinməyib. Məsələn, X-dəki son yazısında İlon Mask Navarronun təhsilinə istinad edərək, "Harvardda iqtisadiyyat üzrə fəlsəfə doktoru almaq yaxşı deyil, pisdir" deyib.

Amerikalı iş adamının 5 aprel şənbə günü İtaliya Liqası partiyasının konqresində videobağlantı vasitəsilə çıxışı daha diqqətəlayiqdir. Orada Mask Tramp administrasiyasının yürütdüyü siyasətdən köklü şəkildə fərqlənən beynəlxalq ticarətə dair baxışını təqdim edib. "Həm Avropa, həm də ABŞ, mənim fikrimcə, ideal olaraq sıfır tariflərlə bir vəziyyətə keçməlidir, Avropa və Şimali Amerika arasında sərbəst ticarət zonası yaratmalıdır" deyib.

Maskın mövqeyi şəxsi maraqla da izah olunur: yeni tariflər birjalarda çökməyə səbəb olub və yalnız Tesla səhmlərinin qiymətinin düşməsi səbəbindən 18 milyard dollar itirib. Maskın hökumət aparatını optimallaşdırmaq üçün etdiyi hərəkətlərə cavab olaraq ABŞ-da elektrik avtomobillərinin satışının kəskin azalması vəziyyəti daha da ağırlaşdırır. Hələ bu brendin salonlarında vandalizm və etiraz hallarını demirik. Problem o qədər geniş yayılıb ki, mart ayında FTB Tesla pərakəndə satış yerlərində və enerji doldurma məntəqələrində zorakılığın qarşısını almaq üçün işçi qrupu yaradıb.

Ancaq tarif müharibəsinə gəldikdə, adi amerikalılar İlon Maskın tərəfinə keçməyə meyllidirlər. Pew Araşdırma Mərkəzinin aprelin 8-də açıqladığı sorğuya əsasən, amerikalıların yalnız dörddə biri ABŞ ixracına yüksək tariflərin tətbiqindən müsbət nəticə gözləyir. Sorğuda iştirak edənlərin yarıdan çoxu əmindir ki, Çinə tətbiq edilən tariflər Amerikanın özünə zərər verəcək. Sorğu bazar ertəsi, aprelin 7-də birjanın çökməsindən əvvəl keçirilib və bu, ehtimal ki, Tramp administrasiyasının hərəkətləri ilə bağlı narahatlığı artırıb.

**V.VƏLİYEV**

# Tibb elminə həsr olunmuş ömür

***Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Eyni zamanda, onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir.***

Ümummilli lider Heydər Əliyevin öz ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbət duyğuları insanı riqqətə gətirəcək qədər təsirlidir. Zərifə xanım Ümummilli Liderlə çiyin-çiyinə addımlayır, qayğısına qalır, çətin günlərdə ona arxa-dayaq olurdu. Bu yükü kövrək çiyinlərində böyük mətanət və fədakarlıqla daşıyırdı. Eyni zamanda, övladlarını vətənin layiqli övladları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirirdi.

Sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dayanırdı. Doğulub boya-başa çatdığı mühitin onun taleyində həlledici rolu olub. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Atası Əziz Əliyev rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini kimi yüksək vəzifələrdə çalışmış, dərin intellekti və təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdı. Atasının yolunu davam etdirməyi, gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu isə gənc mütəxəssisi Moskva şəhərinə aparıb çıxarır və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir.

Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problem olan gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq lazım idi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan vətənə qayıdır və Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail oldu. Tədqiqatlarının yekunu olaraq 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu.



*Xatirə Xəlilova,*
*25 saylı şəhər poliklinikasının*
*baş həkimi*

Görkəmli alim sonra fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın aktual problemlərinə xüsusi diqqət yetirirdi. Bu problemlər arasında diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi xüsusi yer tutur. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiqi ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparıb. Bu tədqiqatların nəticələri "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi dəyərli monoqrafiyalarında öz əksini tapıb. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafat verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların da müəllifi olub. Onların arasında "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri", "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri xüsusi yer tutur. Alimin göz yaşı xəstəliklərinə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri tibb ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdı. Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Dünya miqyasında iridodiaqnostikaya aid kitabları da ilk dəfə Zərifə xanım Əliyeva yazıb.

Təsadüfi deyildi ki, Zərifə xanımın birbaşa rəhbərliyi altında gənc elmi işçilərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmiş, o özündən sonra dəyərli məktəb qoymuşdu.

Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 12 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.



Elçin Bayramlı

## Uşaqlar niyə yoxa çıxır?

***Son vaxtlar uşaqların ortalıqdan itməsi, bəzilərinin heç vaxt tapılmaması çox ciddi təhlükədən xəbər verir. Uşaqların nəzarətsiz buraxılması onların öz səhvi və ya bilmədən cinayətkarların tələsinə düşmələrinə səbəb olur.***

Çox təəssüf ki, son vaxtlar dünya üzrə bu problem getdikcə kəskinləşir, vəziyyət faciəvi həddə gəlir. Dünya üzrə il ərzində itkin düşən uşaqların 7-8 milyondur. Bu, çox dəhşətli dərəcədə böyük rəqəmdir. Ümumi dünya ortalamasında uşaqların maksimum üçdə ikisinin itkin düşdükdən bir müddət sonra ölüsü və ya dirisi tapılır. Üçdə biri isə heç vaxt tapılmır. Avropa İttifaqı üzrə ildə 250 minə yaxın uşaq itkin düşür, onların da təxminən 70 faizi tapılır. Türkiyədə bu rəqəm son 8 ildə 100 min civarındadır. Dəhşətli və acınacaqlı rəqəmlərdir. Dünyadakı ölkələrin vəziyyətinə baxanda istər inkişaf etmiş, istər xaos içində olan ölkələrdə rəqəm sayı yüksəkdir. Məsələn, Amerikada son 10 ildə 400000 uşağın yoxa çıxdığı və onların böyük bir hissəsinin heç vaxt tapılmaması artıq sosial fəlakət həddinə çatmaq deməkdir.

Şükür ki, ölkəmizdə bu sahədə o qədər də faciəvi vəziyyət yoxdur. Lakin arada bizdə də belə hadisələr baş verir, uşaqlar ya oğurlanır, zorlanır, öldürülür, ya da izsiz soraqsız yoxa çıxır. Bu isə orqan mafiyasının işi kimi qiymətləndirilir.

Bu da bizim valideynlərin uşaqlarına qarşı daha diqqətli və məsuliyyətli olması nəticəsində baş verir. Təəssüf ki, bizdə də məsuliyyətsiz valideynlər var. Təcrübə və faktlar göstərir ki, cinayətkarlar adətən sahibsiz uşaqları və ya üzərində nəzarət olmayan uşaqları qurban olaraq seçirlər.

Burada əsas günahkar valideynlərdir. Uşaqlar mümkün qədər 24 saat nəzarətdə olmalıdır. Heç bir yerə tək şəkildə buraxılmamalıdır. Xüsusən qız uşaqları tək buraxılmamalıdır. Uşaqları nəinki tənha yerlərə, hətta günün günorta çağı ictimai yerlərə belə tək buraxmaq olmaz. Çünki ətrafda seksual manyaklar, seriyalı qatillər, cinayətkarlar da var. Belələri bütün ölkələrdə, o cümlədən bizdə də getdikcə artır. Belə bir mühitdə təhlükəsizliyi təmin etmək çətinləşir. Ona görə də, valideyn olmayan yerdə uşaq olmamalıdır. Ancaq məktəb, baxça kimi yerlər istisna ola bilər. Hətta məktəbə gedərkən və gələrkən uşağın yanında ya valideynlərindən, ya da ailə üzvlərindən şəxslər olmalıdır. Təəssüf ki, dünya artıq belədir.

Bizim uşaqlığımızda bu belə deyildi. Belə şeylərə heç ehtiyac da yox idi. Nə belə hadisələr baş verirdi, nə belə bir qorxu var idi. Lakin indi belə bir zamanda, dünyada yaşayırıq. Ona görə valideynlər həmişə uşaqlarını maksimum nəzarətdə saxlamalıdır. Uşaqların nəinki real həyatda fəaliyyətləri, hərəkətləri, eyni zamanda virtual dünyada fəaliyyətləri tam nəzarət altında olmalıdır. İndi hər kəs balaca uşaqların əlinə bir smartfon verib, azad internet dünyasına buraxıb. Bu virtual dünya qorxunc və nəzarətsizdir. Orada hər cür psixotron təsirlər, terror elementləri var və təcrübəsiz uşaq hər cür cinayətkar qrupların təsirinə, tələsinə düşə bilir. Bəzi yeniyetmələr, kriminal və ya radikal dini qruplaşmaların təsirinə düşür.

Bu istiqamətdə bir çox nümunələr saymaq olar. Yalnız valideynlər bu problemin qarşısını ala, uşağını xilas edə bilər. Bəli, valideynlərin bəziləri işlə əlaqəli, müəyyən səbəblərdən övladlarına nəzarət edə bilmir. Lakin yenə də bir yolunu tapıb, uşaqları maksimum nəzarətdə saxlamalıdırlar. Valideynlər başa düşməlidir ki, hər şey yalnız özlərindən asılıdır. Əksər hallarda belə hadisələrə birbaşa özlərinin günahı, təsiri olur. Bax buna görə diqqətli olmalıdırlar. Hansı zamanda, dövrdə yaşadıqlarını başa düşməlidirlər. İnsanların son dövrlərdə psixikasının necə pozulduğunu görməlidirlər. Psixi xəstələrin, seksual manyakların, kriminal ünsürlərin artdığını görməlidirlər.

Uşaqlara da bunları öyrətməlidirlər ki, onlar hər cür vəziyyətlərə hazırlıqlı olsunlar. Demək olar ki, bütün dünyada belə edirlər. Uşaqlara həyatın yaxşı yaxşı tərəfləri deyil, pis tərəfləri də izah edilir. Ümumiyyətlə uşaqların həyatı, sağlamlığı, tərbiyəsi, inkişafı, təhlükəsizliyi ilə bağlı bütün məsələlərdə birbaşa məsul yalnız valideynlərdir. Bu məsuliyyəti dərs etməyən valideyn öz uşağı üçün potensial təhlükədir.

# “Azad edilmiş ərazilərdə böyük quruculuq-bərpa işləri görülüb”




“Böyük Köç, ”Böyük Qayıdış Proqramı”nın Azərbaycan dövlətinin, Prezidentinin rəsmi olaraq qəbul etdiyi ”Qayıdış Proqramı”nın tərkib hissəsidir. Təbii ki , Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərimizi işğaldan azad etdikdən sonra qısa müddətdə orada böyük quruculuq bərpa işləri görülüb”. Bu sözləri SİA-ya açıqlamasında Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri Xəyal Bəşirov deyib.



Onun sözlərinə görə, Ermənistan tərəfinin işğal dönəmində məhv etdiyi, dağıtdığı infrastrukturun bərpası istiqamətində müasir standartlara cavab verən yüzlərlə kilometr avtomobil yolları, dəmir yolları, körpülər, tunellər, hava limanları və ümumilikdə insanların yaşaması üçün böyük işlər görülüb və proses bugün də davam etdirilib: ”Azad edilmiş ərazilərə səfər edən vətəndaşlar, həm də xarici qonaqlar digər şəxslər bunun şahidi olurlar. Amma buna paralel şəkildə mina təmizləmə prosesini də unutmamalıyıq. Çünki böyük quruculuq bərpa işlərinə orada hələ də mövcud olan minalar ciddi şəkildə maneəçilik törədirlər. Bu da prosesi zəifledir və onu sürətinin qarşısını alır. Amma hər bir halda, Azərbaycan həm öz gücü hesabına mina təmizləmə prosesini həyata keçirir, həm də Azərbaycan bərpa işlərini də öz gücü hesabına həyata keçirir”.

Xəyal Bəşirov qeyd edir ki, bunun nəticəsi kimi insanların ora qayıdışını da təmin edirik: ”Zəngilana, Ağalı kəndinə, Füzuliyə, Laçına, Kəlbəcərə, Ağdama, Şuşaya qayıdış prosesi davam edir. Dövlətimiz bu prosesi çox uğurla həyata keçirməkdədir. Amma bizim qarşımızda böyük problemlər də var. Bu problemlərdən biri kimi mina təmizləmə məsələsidir. Söhbət bir milyona yaxın minadan gedir ki, onların da təmizlənməsi prosesi uzun zaman və böyük vəsait tələb edir. Eyni zamanda, həm də Qayıdış prosesini ləngidir. Bu baxımdan Azərbaycanın görməli olduğu çoxlu işlər var və hər il büdcədən işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində milyardlarla manat həcmində vəsaitlər ayrılır. Bu siyasətimizin həyata keçirilməsi ilə bağlıdır. Ümid edirik ki, dövlətimizin qarşıya qoyduğu bütün məqsədlərə vaxtında və lazımi şəkildə nail olunduğu kimi, bu məsələdə də, biz hədəfimizə çatacağıq. O torpaqların əsas sahibləri olan həmvətənlərimiz hədəflədiyimiz müddətdə doğma yurdlarına qayıdacaqlar və oradakı yaşayışlarını bərpa edəcəklər. Dövlətimiz bu istiqamətdə əlindən gələn bütün addımları atır”.

***Xeyrənsə Piriyeva***

## “Effekti yoxdursa, zərərli tərəfləri nədir?”

“İbtidai təhsil səviyyəsi kiçik yaş dövrünü əhatə edir. 6-10 yaşlı uşaqların psixoloji və fizioloji xüsusiyyətləri, istər təhsil proqramları, istər dərsliklər, istər tədris planları ilə bağlı bütün məsələlər nəzərə alınmalıdır”. Bu sözləri SİA-ya danışan təhsil eksperti Elşən Qafarov deyib.

O bildirib ki, ibtidai təhsil səviyyəsində xarici dili tədris planına salmağın heç bir məntiqi yoxdur: ”Oraya informatika, rəqəmsal bacarıqları salmaq tədris proqramını ağırlaşdırmaqla uşaqların mənasız yerə yüklənməsinə gətirib çıxarır. Təklif edirəm ki, ibtidai siniflərdə yalnız ibtidai sinif dərsləri qalsın. Xarici dil və informatika dərslə-



ri beşinci sinifdən keçirilməyə başlansın. Çünki bu, illərdir tətbiq olunur və illərdir ki, heç bir nəticəsi yoxdur. Bu baxımdan ibtidai siniflərdə uşaqlara məhz xarici dil və informatika fənləri əvəzinə məntiq, nitq və sair kimi dərslər olması daha yaxşıdır ki, onların məntiqi düşünmə qabiliyyətinin artırılmasına xidmət edəcək, nitq qabiliyyətini artıracaq. Yaxud da, mütaliə vərdişləri ilə bağlı nəsə etmək olar.

Artıq on illərdir ki, ibtidai siniflərdə xarici dil və informatika tətbiq olunur. Heç bir nəticə də yoxdur. Bu baxımdan ibtidai siniflərdə xarici dil və informatika dərsləri çıxarılmalıdır. İbtidai sinifdə yalnız ibtidai sinif müəllimi dərs deməlidir. İbtidai siniflərdə bir neçə müəllimin dərs deməsi uşaqların yaş dövrü xüsusiyyətinə uyğun olaraq onlara mənfi təsir göstərir. Çünki onlar ilkin olaraq həm məktəb mühitinə, həm müəllim metoduna uyğunlaşmalıdır. Hətta beynəlxalq təcrübədə ibtidai siniflər 10 yaşda yox, 12 yaşda bitir. Yeniyetməlik dövrü də buraya daxil olur. İbtidai siniflərdə ingilis dili, rus dili, xarici dil niyə tədris olunur? Bilmirik. Nəticəsi də yoxdur”.

”Effekti yoxdursa, zərərli tərəfləri nədir? Zərərli tərəflər odur ki, tədris proqramı ağırlaşır, uşaq bir neçə müəllimlə, hətta xarici dil bölünür, nəticə etibarilə uşaq psixoloji travma alır. Ona görə də, bunu dayandırmaq lazımdır. Eyni sözləri informatikaya da aid etmək olar. Məsələ dili bilməkdə deyil, Azərbaycandilli ibtidai siniflərdə ən çox 9-10 saat tədris olunur. Dildə düşünmək bacarığı başqa, dili bilmək başqa şeydir. Onsuz da, hamı azərbaycanlıdır, Azərbaycan dilini də bilirlər. İbtidai siniflərdə də dilin qrammatikası öyrədilmir. Bizə ibtidai təhsil səviyyəsində Azərbaycan dilində düşünməyi bacaran şagirdlər lazımdır. Ona görə də, düşünürəm ki, məntiq və nitq, mütaliə, dünyagörüşü kimi fənlər daxil edilməlidir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

## Ölkədən getmək hüququ məhdudlaşdırılmış borclu şəxslərə SMS göndəriləcək

**Milli Məclis Azərbaycanda ölkədən getmək hüququ məhdudlaşdırılan borclu fiziki şəxsə və hüquqi şəxsin icra orqanının rəhbərinə bu barədə məlumat verilməsi qaydasının dəyişdirilməsini ilk oxunuşda qəbul edib. SİA xəbər verir ki, bununla bağlı ”İcra haqqında” qanuna dəyişikliklər parlamentin dünənki plenar iclasında müzakirəyə çıxarılıb.**

Qeyd edilib ki, dəyişikliyə əsasən, borclu fiziki şəxsin və ya borclu hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmə qərarı dərhal ”Elektron məhkəmə” informasiya sistemindən ”Elektron icra” informasiya sisteminə ötürülür. ”Elektron icra” informasiya sistemi vasitəsilə bu barədə dərhal ”Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə məlumat ötürülür və həmin məlumat-axtarış sistemində borclu fiziki şəxs və ya borclu hüquqi şəxsin icra orqanının rəhbəri barədə məhdudiyyət tətbiq edilir, bununla bağlı ”Elektron icra” informasiya sistemi vasitəsilə borclu fiziki şəxsə və ya borclu hüquqi şəxsin icra orqanının rəhbərinə və tələbkara məlumat verilir, cümlədən borclu fiziki şəxsin və ya borclu hüquqi şəxsin icra orqanının rəhbərinin adına qeydə alınmış mobil telefon nömrəsinə (nömrələrinə) SMS göndərilir.



Borclu fiziki şəxsin və ya borclu hüquqi şəxsin icra orqanının rəhbərinin hüququnun ölkədən getmək müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda bu barədə məlumat dərhal ”Elektron icra” informasiya sisteminə daxil edilir və ”Giriş-çıxış idarələrarası və qeydiyyat” avtomatlaşdırılmış məlumat-axtarış sisteminə ötürülür və həmin məlumat-axtarış sistemində borclu fiziki şəxsin və ya borclu hüquqi şəxsin icra orqanının rəhbərinin barəsində tətbiq edilmiş məhdudiyyət götürülür və bununla bağlı ”Elektron icra” informasiya sistemi vasitəsilə borclu fiziki şəxsin və ya borclu hüquqi şəxsin icra orqanının rəhbərinin adına qeydə alınmış mobil telefon nömrəsinə (nömrələrinə) SMS göndərilir. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Müğənnilər niyə toyda fonoqram oxuyurlar?

*Yazıçı-kulturoloq Aydın Xan Əbilovun SİA-ya müsahibəsini təqdim edirik:*

***- Niyə müğənnilərimiz fonoqrama maraq göstərir? Onlarda fonoqram xəstəliyi nədən qaynaqlanır?***

- Fikirləşmirəm ki, bu, acınacaqlı haldır. Müasir musiqidə, sənətdə bu, normal haldır. Teatr kinoya çevrildi. Kino özü böyük bir fonoqram deyil? Niyə bu hal musiqidə olanda o dəqiqə qısqanclıqla yanaşırıq? Şeirimizin atası Füzuli deyirdi ki, aldanma şair sözünə, əlbəttə ki, yalandır. Yüksələn sənət özündə çox şirin yalanları ehtiva edir. Sənət harmoniyaya xidmət edir. Sənət insanlara enerji verir, həyatın şirinliyini onlara yeridir. Ona görə ki, insanlar harmonik cəmiyyətdə birgəyaşarlığı etsinlər. Yoxsa hamımız bilirik ki, biz doğuluşdan əvvəl ölü idik, həyatın sonu da ölümdür. Sənət odur ki, həyat yolumuzu, ömrümüzü özümüz üçün şirinləşdirək, Vətənimizi qoruyaq, övladlarımızı tərbiyə edək, onları cəmiyyətə layiqli şəxslər kimi böyüdək. Bu baxımdan musiqidə gedən proses bizim ixtiramız deyil. Bizdən olsa, bizim üçün tar, kamança ifa edən xanəndə xalq musiqisini ifa edir. Təsəvvür edin, meydanda sənətçi canlı oxusa belə musiqini bərbad ifa edəcək. Sənətçilər bilir, nə demək istəyirəm. Biz bilməliyik ki, elmi, texniki tərəqqi musiqi sənətinə təsir edir. Onda gəlin, klipləri qadağan edək, konsertlər olmasın. Mən sənətlə yanaşı super texnologiyaların müasir incəsənətimizdə olmasının tərəfdarıyam. Fonoqram səviyyəli səs avadanlığı ilə birlikdə olmalıdır.

***- İndi müğənnilər niyə boğazlarına əziyyət vermirlər?***

- Kimdir bu hadisələri törədənlər? Müğənnilər, yoxsa cəmiyyət? Amerika Birləşmiş Ştatlarında, ya da Türkiyədə supermarketdə pomidor iki gün olur. Bunun yarısı orqanikdir, bahadır, yarısı da gübrə ilə hazırlanıb və ucuzdur. Seçim sizindir, seçim üçün sizə intellekt, təhsil, məlumat, estetik düşüncə lazımdır. Bunlar Azərbaycanda yoxdur. Biz bunu məhv etdik, formalaşdıra bilmirik. Bizdə peşəkar bəstəkarlıq məktəbi unikaldır. Burada müsəlman, xristian və mədəniyyətlər birləşib. Ona görə də, bizim musiqi dilimizə istənilən xalqın musiqilərini asanlıqla tərcümə etmək olur. Biz asanlıqla bütün xalqların mahnılarını oxuya bilirik, bu, hansı xalqda var? İndi Türkiyə və Rusiyanın ən yaxşı müğənniləri azərbaycanlılardır. Biz universal və estetik düşüncə tərzinə malik xalqıq. Amma bu, indi sanki heç kimə lazım deyil. Azərbaycanda Opera və Balet teatrına, Akademik Dram teatrına baxanlara baxın, görün kimlərdir. Hamısı rusdillilərdir. Deməli olar ki, azərbaycanlılar yoxdur. Azərbaycanda meydan musiqisinə kütləvi baxış var. Gənclər də elə bilir ki, musiqi budur. Elə bilirlər ki, meyxana, toy mahnıları musiqidir, ancaq onların yanında başqa musiqi lazımdır. Ən təhlükəli hal da budur. Müğənnilərimizə bu, maraqlı deyil. Onlara sərf edir ki, daha çox kütlə olsun, daha çox toy tutsunlar.




***- Bugünkü şou-biznesi necə görürsünüz?***

- Müasir dövr tez, asan, unudula bilən, insanlara yük olmayan, dünyagörüşünü dəyişməyən, onları maarifləndirməyən, onları necə varsa, elə də saxlayan mahnılar tələb edir. Biz artıq bunun sintezini tapmalıyıq. Qədim mahnıları sintez edən kimi o dəqiqə tanındı, dinlənildi. Ədəbiyyatla müqayisə aparsaq, qəzəl də var, meyxana da var. İkisi də əruz vəznindədir. Niyə meyxana kütləyə çatdı, qəzəl çatmadı? Onun çatması üçün Sovet metodu lazım idi. Məktəb qarşısında idman etdiyimiz yerdə musiqiləri orada çatdırırdılar. Bir hadisə üç dəfə olandan sonra artıq beynə oturur.

***- Bəzən xanım müğənnilərimiz daha tez məşhurlaşırlar. Bununla razısınız?***

- Bu, sənətdə daha tez görünür. Biz niyə deyirik ki, komanda oyunu bizdə yoxdur? Azərbaycan, türk düşüncəsində aşıq sənəti önəmli olub. Bizim əsl milli musiqimiz aşıq sənətidir. Qərbi Azərbaycan, Qazax, Tovuz ərazisində bir aşıq ifa edirdi. Həmin şey bizim genetik kodumuzda var. Düzdür, burada iqtisadi tərəf də var. Amma müğənnilər indi deyirlər ki, ancaq "mən". Sənət estetik gözəllik tələb edir. Əgər pul verirəmsə, anamı oxutdurub ona qulaq asaram. Bizim görkəmli sənətkarlarımız var, amma onların da dövranı keçib. Hər dövrün öz gənci və igidi olduğu kimi sənətdə də belədir. Yeniliklər və yeni nəfəs gəlməlidir. Ümumiyyətlə, sənət daha çox gənclər və cavanlarla bağlıdır. Mən pul verirəm ki, orada gözəl bir qadın görüm. Yaxud da, sənəti ilə məni təəccübləndirəcək birini görmək istəyirəm. Biz gözəlliyə baxmaq istəmirik? Hüseyn Cavid demir ki, mənim Tanrım gözəllikdir? Yəni anlamalıyıq ki, insanlarda bu tələbat da var. Amma Avropada buna önəm verilmir. Orada striptiz klublar da var, əyləncə mərkəzləri də var. Orada hər tələbata görə uyğun məkan var. Bizdə bu yoxdur.

***- Müğənnilərə fonoqram oxumaq qadağan edilsin?***

- Toyda, konsertdə iştirak edən xalq, müğənni, toy sahibi xoşbəxtdir. Biz niyə onların xoşbəxtliyinə mane olmalıyıq. Axı o müğənni səs sahibi deyil ki, canlı oxusun. Canlı oxusa, dava düşəcək, toy yasa çevriləcək. Səs sahibi, görüntü onlarındır. İstəsələr, canlı oxuyarlar, istəsələr fonoqram ilə. Sözsüz ki, ansamblla gələn, öz səsi ilə oxuyan insan peşəkar kimi hörmətə layiqdir. Bu iş çoxlu maliyyə, texnika tələb edən işdir. Bizim restoranların hamısında normal akustik imkanlar var ki, səs normal çata bilsin? Biz buna görə məcburuq ki, səsdən çox mahnıya fikir verək. Bizim şou-biznesin və kreativ sənayenin böyük bir hissəsi toydur. Fonoqramı ləğv etsək, toy biznesi, bir milyondan çox iş yeri ləğv olacaq. Sənətçilər ac qalacaq. Yalançı sənətkarlar da üsyan edəcəklər. Yaxşı olar ki, toy sahibi müğənni ilə əvvəldən yazılı müqavilə bağlasın. Bir sənətçi 30 günün hər gününü oxuya bilməz. Bu, artıq sənət deyil. Obyektiv və subyektiv səbəbləri nəzərə almaq lazımdır.

**Söylü Ağazadə**



# "Ermənistanın bu təxribatlarının hər hansı nəticəsi olmayacaq"





**"Ermənistanın tez-tez atəşkəsi pozması, mövqelərimizi atəşə tutması, şərti sərhəd istiqamətində istahkamlar qurması kimi təxribat xarakterli fəaliyyətin arxasında iki səbəb dayanır. Bunlardan birincisi, Ermənistanın diqqətləri yenidən özünə doğru yönəltmək cəhdi ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.**



O bildirib ki, Bayden hakimiyyəti dövründə ABŞ-la imzalanmış müttəfiqlik sənədindən irəli gələn dəstəklə bağlı Tramp administrasiyasının müvafiq addımlar atmaması, Avropadakı havadarların isə ABŞ-la münasibətlər fonunda ciddi problemlərinin olmaması səbəbilə Ermənistana əvvəlki qədər diqqət yetirməmələri Ermənistanı bu cür təxribatçı fəaliyyətə sövq edir: "Ermənistan hakimiyyəti düşünür ki, bu şəkildə təxribatlar törətmək və Azərbaycanın da ona cavab verməsi fonunda ayrı-ayrı Qərb dairələri Ermənistandakı maraqlarını qorumaq üçün hərəkətə keçə və rəsmi Bakıya təzyiq göstərə bilərlər.

İkinci səbəb isə sülh sazişi ilə bağlıdır. Paşinyan hakimiyyəti bütün imkanlardan istifadə edir ki, sülh sazişi indiki şəkildə, yeni Azərbaycanın şərtləri yerinə yetirilmədən imzalansın. Onlar bu sazişi qarşıdakı seçkilərdə hakimiyyətin uğuru kimi təqdim etmək və seçki kampaniyasında istifadə etmək istəyirlər. Ona görə də bu cür təxribatlar törədərək vəziyyəti gərginləşdirmək və sonra da yeni müharibə riski adı altında Qərbin ölkəmizə təzyiq göstərməsinə nail olmağa çalışırlar".

"Amma istənilən halda indiki şərtlər daxilində, yəni Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının qaldığı təqdirdə sülh sazişinin imzalanması mümkün görünmür. Səbəb isə sadədir. Sülh sazişi iki ölkə arasında imzalanan sənəddir. Yəni, biz sazişi Paşinyanla yox, Ermənistanla imzalamaq niyyətindəyik və belə olan halda təkcə Paşinyanın ölkəmizin ərazi bütövlüyünü tanıması və ölkəmizə qarşı ərazi iddialarının olmaması ilə bağlı bəyanatları yetərli deyil. Ermənistanın ana qanununda Azərbaycana qarşı ərazi iddiaları qaldıqca imzalanacaq hər hansı bir sənədin də hüquqi əhəmiyyəti olmayacaq. Odur ki, Ermənistanın bu təxribatlarının hər hansı nəticəsi olmayacaq. Əksinə əgər təxribatlar davam edəcəksə, mütləq şəkildə cavab tədbirləri də görüləcək ki, bundan ən çox əziyyət çəkən Ermənistan olacaq" - deyə o, əlavə edib.

MÜNASİBƏT

**Söylü**

ARAŞDIRMA

# Güclü uşaq yetişdirməyin YOLLARI

***Bir anlıq ilk dəfə valideyn olacağınızı öyrəndiyiniz və sonra uşaqlarınızı qucağınıza aldığınız günə qayıdın. Hansı xəyallarınız vardı, necə bir uşaqdır və onunla necə bir münasibət təsəvvür etmişdiniz? Bu gün övladınıza və onunla münasibətinizə baxanda nə görür və hiss edirsiniz?***

Uşaqlarınızı böyütmək üçün əlinizdən gələni etməyə çalışırsınız. Mükəmməl valideynlik yoxdur. Pis valideynlik deyə bir şey yoxdur, amma yanlış valideynlik anlayışları var. Uşaqlığınızdan öz valideynlərinizi necə xatırlayırsınız? Onlara bənzəyirsiniz? Birinə bənzəmək istərdinizmi? Uşaqlar su kimidir, hansı qaba qoyursan, onun şəklini alırlar. Buna çox inanmaq ilə bərabər, övladlarımızın genetik olaraq bizdən aldığı xüsusiyyətləri də gözardı etməməliyik.

Hər uşaq bir xasiyyətlə doğulur. İki uşaqlı ailələr bunu daha çox hiss edə bilər. Eyni hərəkət etsək belə, onlar çox fərqli inkişaf edə və davrana bilərlər. Bundan əlavə, valideyn olaraq onları tərbiyə edərkən münasibətimiz çox vacibdir. Uşaqlarımız bizi hər mənada özlərinə nümunə götürür və həyatı öyrənirlər. Bu heç də asan məsuliyyət deyil. SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Güclü uşaq yetişdirmək nədir?

Güclü uşağın nə demək olduğunu heç düşünmüsünüzmü? Uşağınızın uğur qazanması daha vacibdir, yoxsa xoşbəxt və özünü təmin etməyi? Güclü uşaq öhdəsindən gəlmək bacarığı yüksək olan, istənilən mühitdə özünü ifadə edə bilən, hüquqlarını axtaran, istəklərini ifadə edə bilən uşaq deməkdir. Hər yeni vəziyyətə və mühitə uyğunlaşa bilən, yəni sağ qala bilən uşaqdır.



## Özünə inamla uşaq yetişdirmək

Özünə inam necə inkişaf edir? 0-2 yaşda əsas məqsəd bağlılıq yaratmaqdır. Uşağın dünyagörüşü isə "Mən dünyanın mərkəzindəyəm və hamı məni güvəndə və xoşbəxt saxlamalıdır". 2-6 yaş üçün əsas məqsəd uğurlu və müs-





təqil olmağı öyrənməkdir. Dünyagörüşü belədir; Mən hər şeyi bilirəm və hər şeyi edə bilərəm. Körpəlik dövründən etibarən valideynlər körpənin ehtiyaclarını ödəməli, körpəyə dəyərli olduğunu hiss etdirməli, qucağında tutduqda sevgi və hüzur hiss etdirməlidirlər. Körpə ana südü ilə qidalanmaqdan həzz almalıdır, çünki ana südü yalnız mədəsini doldurmaq deyil; Bu həm də emosional qidanın təmin edilməsi deməkdir. Körpənizi ağlatmadan istədiyi zaman süd vermək, əlcək taxmamaq, əlinizi əmməsinə icazə vermək, bu müddət ərzində göz təması qurmaq vacibdir.

Valideynlərin ətrafa narahat gözlə baxmaması da vacibdir, çünki onlar dünyanı ilk olaraq bizim gözümüzlə görürlər. Biz narahat olsaq, onlar da narahat olurlar. Ananın hormonal problemi varsa, peşəkar yardım istənilə bilər.

Uşaq böyüdükcə, təxminən 2 yaşında, sağlam şəkildə valideynlərindən uzaqlaşmalı və əlindən gələni etməsinə icazə verilməli, eyni zamanda uşağa məhdudiyyətlər qoymalı, hər istədiyini almamalı və etməməli, ona əsas vərdişləri (yatmaq, yemək yemək kimi) öyrətməlidir. Bu, onun özünü təhlükəsiz hiss etməsinə, təcrübə aparmasına və özünü müsbət qavrayışın, yəni özünə inamın formalaşmasına kömək edir.

Uşağa çeviklik təmin etmək, onun rejimini pozmaq, harada olursa olsun yatmasına icazə vermək, yeni vəziyyətlərə və mühitlərə uyğunlaşmasına kömək etmək vacibdir. Uşağınızı kitab oxuyaraq yatırtmaq, onun yemək rejimini pozmamaq, zorla yeməyə məcbur etməmək vacibdir. Etdiyiniz dəyişiklikləri bir gecədə etməməlisiniz. Dəyişiklik etmək niyyətindəsinizsə, bunu kiçik addımlarla edin.

## Övladlarınızı böyüdərkən necə davranmalısınız?

Uşaqlarımız bizim uzantılarımız deyil. Bizim edə bilmədiyimiz arzuları həyata keçirmək üçün həyata gəlməyiblər. Onlar öz həyatları üçün vardır. Etməli olduğumuz şey uşaqlarımızı tanımaq, onları olduğu kimi qəbul etmək, onları anlamaq və özlərini təkmilləşdirmək üçün imkanlar yaratmaq, onlara hobbi (maraq və qabiliyyətlərinə uyğun olaraq müntəzəm və uzun müddət məşğul ola biləcəkləri hobbi) seçməkdə kömək etmək, onlara məsuliyyət vermək, onlara qərar vermək və seçim etmək hüququ vermək, onlara güvəndiyimizi hiss etdirmək, onlara özümüzə güvəndiyimizi hiss etdirmək.

Həyat ağ və qara deyil. Onun bozlardan ibarət olduğunu hiss etdirməyi bacarmalıyıq. İnsanlar yaxşı və ya pis deyil. Hər birimizin yaxşı və pis tərəfləri var. Davranışı şəxsiyyətdən ayırmaq vacibdir. "Mən səni sevmirəm." demək əvəzinə "Bu davranışı bəyənmədim" deyə bilərsiniz. "Məni əsəbləşdirdin." demək əvəzinə "Mən bu davranışa qəzəblənirəm" deyə bilərsiniz. Uşaqlarımıza sevdiklərimizə də əsəbiləşə biləcəyimizi öyrətmək vacibdir. Valideynlərin münasibəti əksinədirsə, bu, uşaq üçün ən böyük problemdir. Uşaq çaşqın olur. Uşaq nə edəcəyini bilmir. Valideynlərin münasibətinin eyni olması vacibdir. Uşaqdan gözləntilərimizin real olması və çox yüksək olmaması vacibdir. Təbii olmaq və uşağı həyatımıza daxil etmək lazımdır.

## Uşaq üçün limitlərin təyin edilməsi

Uşağınız üçün məhdudiyyətlər təyin edərkən əvvəlcə uşağınızın hisslərini başa düşdüyünüzü göstərin. Əgər qəzəblidirsə, "Başa düşürəm, sən əsəbisən". deyə bilərsiniz. Sonra izah edin və sərhədləri təyin edin. Uşağınıza seçimlər verməklə, onun davranışlarına görə məsuliyyət daşımasına kömək edirsiniz.

Uşağın uğurundan çox, doğru yerdə və zamanda göstərdiyi səyləri tərifləmək daha yaxşıdır. "Mən bunu yaxşı etdim?" deyə soruşduğunda "Nə düşünürsən? Mən görürəm ki, çox çalışırsan." demək daha məqsədəuyğun olardı. Uşağın xaricə deyil, daxili diqqətini cəmləməsinə və özünə inamını artırmasına kömək edəcək. Uşaqlar da qeyri-real təriflərə ehtiyac hiss edirlər.

*Ardı Səh. 14*

# Güclü uşaq yetişdirməyin YOLLARI

Əvvəli Səh. 13

Valideynlərin uşaq haqqında təsəvvürləri cəmiyyətin və onların dostlarının uşaq haqqında təsəvvürləri ilə uyğun gəlmirsə; Uşaq məyus olur və özünə inamı azalır, yalançı mənlik hissi yaradır.

Sərhədlər vacibdir, çünki uşaqlar sərhədlərə ehtiyac duyurlar. Valideynlər evin valideyni, uşaq isə evin uşağı olmalıdır! Sistem nəzəriyyəsinə görə ailə bir sistemdir və sistemdə valideynlər koalisiyada, uşaqlar isə bu koalisiyadan kənarda olub evin uşaqları kimi qalmalıdırlar. Bir iyerarxiya, bir növ yuxarı-tabe münasibətləri olmalıdır.

Anaların iş həyatına girməsi və valideynlərin uşaqları ilə daha az vaxt keçirdikləri üçün sərhədləri müəyyən edə bilməmələri uşaq mərkəzli ailələrin formalaşmasına səbəb olub. Koalisiyaların pozulduğu və sərhədlərin olmadığı yerlərdə uşaqlar özlərini təhlükəsiz hiss etmədikləri üçün aşağı özgüvəni ilə böyüyürlər. Valideynlər əvvəlcə ayrı-ayrılıqda xoşbəxt olmalıdırlar. Sonra cütlük kimi xoşbəxt olmalıdırlar. Ər və arvad bir-birinə vaxt ayırmalıdırlar. Əvvəlcə çətiri özlərinə tutmalıdırlar. Belə ailələrdə uşaqlar təhlükəsiz və xoşbəxt olurlar.



## Uşaqlarla vaxt keçirmək

Valideynlər uşaqları ilə təkbətək vaxt keçirməyi bacarmalıdırlar. Uşağı yönləndirmədən, tənqid etmədən həftədə yarım saat oynadıqları zaman, uşağa oyunu idarə etməsinə icazə verməklə, uşağın daxili aləminin qapılarını aça, övladının özünə inamını inkişaf etdirə bilərlər. Oyun sərbəst və strukturlaşdırılmış olmalıdır. Oyun oynayarkən təkbətək, yerdə oynamaq lazımdır. Oyuncaqlar elə olmalıdır ki, uşağın yaradıcılığını üzə çıxarsın. Oyundan başqa bir şeyə keçərkən "keçid xəbərdarlığı" olmalıdır. Məsələn; "Oyunumuz beş dəqiqəyə bitəcək" demək olar.

Uşağa müsbət diqqət göstərilməlidir. "Xeyr" deməkdənsə, "afərin, bunu etmirsən" deməlisən. Pozitiv dəftəri istifadə edilə bilər; bir həftə ərzində uşağın müsbət davranışları dəftərə yazıla bilər. İstədiyiniz hər şeyi almamalı və istədiyi hər şeyi etməməlisiniz. Çünki bu, narazılığa səbəb ola bilər. Uşağın özünü idarə etməsinə kömək etmək üçün xərclik sistemindən istifadə edilə bilər. "Uşağın xasiyyəti belədir, belə etmək istəmir, xoşuna gəlmir" kimi sözlər söyləməməliyik. Bununla biz uşağa bu şəxsiyyəti aşılayırıq.



## Uşaqlarda narahatlıq və özünə inam

Uşaqların özünə inamı azaldıqda, narahatlıq və qorxu artar, obsesyonlar yarana və ya əksinə ola bilər. Uşaqlarda narahatlıq yarandıqda, onlarda aşağı özünə hörmət, zəif sosial bacarıqlar və akademik problemlər yaranır.

Narahatlıqla mübarizədə narahatlıqları başa düşmək və qəbul etmək, uşağa həll yolları tapmağa kömək etmək, mübarizə bacarıqlarını inkişaf etdirmək və onu rahatlaşdırmaq vacibdir. Narahat olduğumuz zaman nəzarət etməyə başlayırıq. Eyni sualları təkrar-təkrar soruşduqda, nə düşündüyünüzü soruşmaq və onlara cavab vermələrini təmin etmək vacibdir. Zarafat etmək narahatlığı aradan qaldırmaq üçün çox faydalı ola bilər. Çünki güldükcə bütün qayğılar yox olur.

Obsesif dövr normal inkişaf prosesində 2-5 yaş arasıdır. Uşaqlar eyni şeyi təkrarlaya bilərlər. Təkrar və rutinlər uşaqlara xarici dünyanı anlamağa kömək edir. Bundan sonra nə olacağını təxmin edə və nəzarətdə qala bilərlər.

4-5 yaşından etibarən bu vəsvəsələr azalıb yox olmalıdır. Tualet tərbiyəsində inadkar olmamaq və vəsvəsələrin qarşısını almaq üçün təmizliyə çox diqqət yetirməmək vacibdir. Tədqiqat nəticələri göstərir ki, ağlamaq uşaqlara zərər vermir, əksinə, rahatladığını və sağaldığını göstərir.

## Qorxular



Təxminən 8 ayda yad adamlardan qorxma, 2 yaşında yüksək səslər, tozsoran, ildırım gurultusu, 3-4 yaşlarında isə qaranlıq, dilənçilər, oğrular, polislər və valideynlərdən ayrılıq qorxusu yaranmağa başlaya bilər. 4 yaşında azalma müşahidə olunur və 6 yaşında yenidən artım müşahidə oluna bilər. Kabuslar, cadugərlər, yanğınlar və oğrularla bağlı qorxular yarana bilər. Onlara baxdıqları filmlər və gördükləri xəyallar təsir edə bilər. 6 yaşından sonra qorxular azalır.

Uşağın zəka səviyyəsi artdıqca, narahatlığı da arta bilər. Onlar bir neçə addım irəlidə görürlər. Qorxu tez-tez uşaqlar mühüm inkişaf addımları atarkən ortaya çıxır. Bu dövrdə valideynlər daha çox sevgi və güvən göstərməlidirlər.

Valideynlərinin heyvandan qorxduğunu görəndə uşaqlar da qorxa bilərlər. Uşağa danışmaq, təsəlli vermək, ona güvən vermək, həll yollarını çıxarmağa kömək etmək, nədən qorxduğunu ona çatdırmaq, qorxusunu addım-addım aşmağa təşviq etmək qorxuların aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Uşağınıza qorxduğu şeyləri çəkdirmək, qutuya qoymaq, qutunu yandırmaq və ya atmaq kimi şeylər də faydalı ola bilər.

Uşaqlar yaşlarından artıq şiddətə, cinsəlliyə və ya qorxuya məruz qalmamalıdırlar. Yetkinlər üçün nəzərdə tutulan seriallar hətta arxa planda da yayımlanmamalı, xəbərlərə onlarla yanaşı baxılmamalıdır. Ekrana mümkün qədər seçici və məhdud şəkildə baxmaq lazımdır.

Xülasə etmək lazımdır ki, güclü uşaq, idarəolunmazlıq və həyatın çətinlikləri ilə güclü mübarizə bacarığı olan uşaqdır. Hər zaman onlarla ola bilmədiyimiz üçün onları güclü böyütməliyik. Eyni zamanda özünə güvənən uşaq uğurlu uşaqdır. Onların özlərini təhlükəsiz hiss etmələrini təmin etmək və həmçinin onlara ehtiyac duyduqları zaman yanımızda olduğumuzu bildirərək onları bir addım arxadan izləmək vacibdir. Biz bunu unutmamalıyıq. Əhəmiyyətli olan nə etdiyiniz deyil, bunu necə etdiyiniz və bunu edərkən necə hiss etdiyinizdir. Özünə güvənməyən uşaq cəhd etməyəcək və nələrə nail ola biləcəyini bilməyəcək!

Analar və atalar uşaqları dünyaya gəlməmişdən əvvəl müxtəlif xəyallar qururlar. Övladlarının necə insan olacağını, hansı peşənin sahibi olacağını xəyal edir, bəzən övladlarını da bu arzularına uyğunlaşdırmağa çalışırlar. Mütəxəssislərin fikrincə, valideynlərin bu cür münasibəti onların uşaqla ünsiyyətini korlayır, özünə inamını qırır. Valideynlərin övladları haqqında qəbul etməli olduqları ilk həqiqət onların özlərindən ayrı fərdlər olmasıdır.

Uşaqlarını qorumaq istəyərkən bəzən çox məhdudlaşdıran valideynlər, uşaqlarının özünə inamının inkişafına təsir edir. Uşaqlara seçim imkanı vermək lazımdır ki, onlar özlərinə güvənsinlər və öz qərarlarını qəbul etsinlər və nəticələri ilə üzləşsinlər. Problemlərinin öhdəsindən gəlməyə kömək etməklə, həm də öz həll yolları üzərində işləməyə məcbur etməklə inamlı, güclü uşaqlar yetişdirmək olar.

***Ayşən Vəli***

# Bərpaolunan enerji qaynağı: külək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

**Tükənməz və bərpa oluna bilən enerji qaynaqlarından biri olan külək enerjisi bu gün bir çox ölkədə təcrübədən keçirilən və effektiv nəticələr əldə edilən qaynaqdır. Küləkdən enerji əldə etmək bərpa olunan enerji mənbəsi olmaqla yanaşı ətraf mühitin zərər görməməsi üçün də effektiv üsuldur. Bu üsulla atmosferdə isti və soyuq havanın mübadiləsi nəticəsində yaranan küləyin kinetik enerjisi əvvəlcə mexaniki, sonra isə elektrik enerjisinə çevrilir.**









Küləkdən əldə edilən enerji gündəlik həyatımızın bir çox sahəsində işimizə yarayar - parkların, xiyabanların, küçələrin, prospektlərin işıqlandırılması, dövlət qurumları və təşkilatların, sənaye və ya xidmət sektorundakı müəssisələrin enerji təminatında, parklardakı, bağlardakı suvarma sistemlərinin, fərdi evlərin elektriklə təchizatında böyük paya sahib olar. Yəni, külək enerjisindən enerjiyə ehtiyacı duyulan hər sahədə istifadə edilə bilər. Bu həm ekoloji cəhətdən təmiz variantdır, həm də xərcləri minimuma endirdiyi üçün büdcəyə qənaətdir.

Günəşin isti şüaları dünyanın bəzi hissələrini istilikdən yandırsa da, digərlərinə uzun müddət çatmır. Bu, bütün atmosferdə isti və soyuq havada fərqlər yaradır. Hava isindikcə onun təzyiqi azalır və yer səthindən yuxarı qalxır, soyuq hava isə yüksək təzyiqə malik olduğu üçün cazibə qüvvəsinin təsiri ilə həmişə səthə yaxınlaşmağa meyllidir. İsti və soyuq havanın dairəvi mübadiləsi nəticəsində güclü cərəyan yaranır. Bu, küləkdir.

Havanın yüksək təzyiq bölgəsindən aşağı təzyiq bölgəsinə yerdəyişməsi nəticəsində yaranan küləyin əsasını temperatur fərqi təşkil edir. Küləyin sürəti təzyiq fərqinə görə dəyişir. Fırlanma oxundan asılı olaraq küləyin kinetik enerjisindən istifadə edərək elektrik enerjisi istehsal edən turbinlər maili ox, üfüqi ox, şaquli ox kimi təsnif edilir. Gecə saatlarında temperatur azalır, soyuyan hava növbəti günün sübhündə isinməyə başlayır. Yerdəyişmə başlayır, atmosferdəki soyuq hava yerə enir, külək əmələ gəlir. Külək turbin qanadlarını döndərməyə başladığı üçün kinetik enerji generatorun köməyi ilə əvvəlcə mexaniki enerjiyə, sonra isə elektrik enerjisinə çevrilir.

Tarixi mənbələrə görə, küləkdən istifadə ideyasının eramızdan əvvəl 4000-ci ildə insanın suyun üzmə qabiliyyətini kəşf etdiyi zaman yarandığı güman edilir. Məlumdur ki, misirlilər sal, avarlı qayıq və qayıq kimi su nəqliyyat vasitələrini icad etdikdən sonra sürəti artırmaq üçün zamanla bu nəqliyyat vasitələrinə yelkən adlanan qurğular əlavə ediblər. Fırlanan qurğuların (turbinlərin) köməyi ilə küləkdən fasiləsiz güc əldə etmək - bir çox ixtiralar kimi - qismən təsadüf, qismən də maraq nəticəsində olub.

Külək enerjisindən ilk dəfə eramızdan əvvəl 1000-00-ci illər arasında Çin, Fars və ya Yunanlar tərəfindən quruda istifadə edildiyinə dair tarixi qaynaqlarda müxtəlif qeydlər var. İlk nümunələri eramızdan əvvəl 900-cü ilə aid edilən şaquli külək turbinlərindən o dövrdə su vurmaq və taxıl üyütmək üçün istifadə olunub. Sonrakı əsrlərdə böyük yel dəyirmanlarına çevrilən sadə mexanizmlərin nəticədə bugünkü müasir elektrik stansiyalarına çevrilməsi, əlbəttə ki, bir çox ixtiraların inkişaf prosesi kimi - 19-cu əsrə qədər gözləməli oldu. Beləliklə, texnologiyada demək olar ki, hər şey kimi, müasir külək turbinlərinin ixtirası İkinci Sənaye İnqilabı dövrünə təsadüf edir.

Külək enerjisindən elektrik enerjisinin alınması ilə bağlı ilk araşdırmalar Danimarkalı fizik Poul La Kur tərəfindən aparılıb. Kur həm də bu sahədəki inqilabi fəaliyyətinə görə müasir aerodinamikanın qabaqcıllarından hesab olunur. Kur 1891-ci ildə külək turbininin qurulması üçün ilk cəhdini etdi və dörd il sonra, 1895-ci ildə o, həm də mexaniki enerjini elektrik enerjisinə çevirən külək turbininin ilk prototipini hazırladı. Lakin onun ixtirası hökumət tərəfindən dəstəklənmədiyi üçün sonrakı illərdə işini əsasən kağız üzərində davam etdirib. Poul La Kur tərəfindən hazırlanmış ilk beş və dörd qanadlı külək turbin modellərindən sonra bu sahədə araşdırmalar alman fiziki Albert Betz və aviasiya mühəndisi Ulrich Hütter ilə daha da dərinləşdi.

Daha az qanadlı və daha incə quruluşlu külək turbinlərinin səmərəlilik baxımından daha güclü bir seçim olduğunu iddia edən Kur tezisi, 1980-ci illərdə iki qanadlı külək turbin modellərinin də ideya qaynağı oldu. Bununla belə, üstünlük bu gün geniş ərazilərdə tez-tez rastlaşdığımız üç qanadlı turbinlərə verilir. Səbəb, ağırlığı bərabər paylamaq və fırlanma anını azaltmaqla enerji səmərəliliyini artırmaq idi. Bu səbəblə üç qanadlı dizaynlar ən ideal quruluşa sahib hesab edilir.

Külək turbinləri şaquli oriyentasiyaya görə daha az yer tutur. Yaşayış mühitinin qorunması baxımından da daha çox üstünlük verilən alternativdir. Hətta əkinçilik sahələri olan ərazilərdə də yerləşdirilə bilər. Bundan əlavə, o, hətta məskunlaşma üçün yararsız olan yamacları, dağları təmiz enerji istehsalı üçün yararlı sahələrə çevirməyə imkan verir.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) 2021-ci il sonu rəqəmlərinə görə ümumi meqavat (MVt) quraşdırılmış külək enerjisi gücünə görə dünyanın aparıcı ölkələri Çin, ABŞ və Almaniyadır. Bu ölkələri müvafiq olaraq Hindistan, İspaniya, Böyük Britaniya, Braziliya, Fransa, Kanada və İsveç izləyir.

Qlobal Külək Enerjisi Şurasının (Global Wind Energy Council - GWEC) hazırladığı ”Global Wind Report 2022” hesabatında qeyd edilirdi ki, Azərbaycan ofşor zonalarda külək enerjisi potensialına görə dünyada 2-ci ölkədir. Hesabatda deyilirdi ki, ölkəmizin, təxminən, 157 qiqavatt külək enerjisi potensialı var və hökumət 2030-cu ilə qədər ümumi enerji qoyuluşunda bərpa olunan enerjinin payını 30 %-ə çatdırmağı planlaşdırır.

***Lalə Mehralı***

SƏS
12 aprel
2025-ci il


**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Sistemli şəkildə islahatlara ehtiyac var"

*Ekspert mühüm məqamları açıqladı*



**"2025-ci ildə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş 11-ci sinif buraxılış imtahanında maksimal - 300 bal toplayan abituriyentlərin sayı cəmi 23 nəfər olub. Bu, əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə azalmadır". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Kamran Əsədov sözlərinə belə davam edib: "2024-cü ildə bu göstərici 2-ci zonada 39 nəfər, 1-ci zonada isə 14 nəfər idi. Əgər bu rəqəmlərə yüz minlərlə abituriyentin iştirak etdiyi buraxılış imtahanlarının kontekstində baxsaq, bu qədər az sayda yüksək nəticə göstərənlərin olması ölkənin ümumi təhsil keyfiyyətinə dair narahatedici siqnaldır. Çünki 300 bal yalnız buraxılış imtahanının nəticəsidir və burada yalnız riyaziyyat, Azərbaycan dili və xarici dil üzrə biliklər yoxlanılır. Bu üç əsas fənn üzrə yüksək nəticə əldə edənlərin sayının bu qədər az olması biliklərin səviyyəsində ciddi çatışmazlıqların olduğunu göstərir. Azərbaycan Respublikası "Təhsil haqqında" Qanunun 14-cü maddəsinə əsasən, ümumi təhsil pilləsinin məqsədi şəxsiyyətin formalaşması, məntiqi təfəkkürünün inkişafı və onu həyatın müxtəlif sahələrinə hazırlamaqdır. Lakin yüksək nəticə göstərənlərin sayı bu məqsədə tam çatılmadığını göstərir. Qanunda qeyd olunan "təhsil alanların biliyinin qiymətləndirilməsi müasir tələblərə cavab verməlidir" bəndinə əsasən, qiymətləndirmə obyektiv və şəxəli olmalıdır. Amma nəticələr göstərir ki, ya qiymətləndirmə mexanizmi real bilikləri üzə çıxarmır, ya da tədris sistemi şagirdləri bu tələblərə hazırlaya bilmir.

Bu göstəricinin müsbət tərəfi ondan ibarətdir ki, 2024-cü illə müqayisədə 1-ci zonada artım var - 14 nəfərdən 23 nəfərə yüksəlib. Amma bu, sistem səviyyəsində inkişafdan çox fərdi uğurların nəticəsi kimi görünür. Bu 23 nəfər əsasən özəl kurslarda hazırlaşan və ya fərdi müəllim dəstəyi alan şəxslər ola bilər. Deməli, bu nəticə dövlət məktəblərində verilən təhsilin keyfiyyətinə dair ümumiləşdirilmiş fikir formalaşdırmaq üçün yetərli baza deyil. Əgər bu rəqəmin arxasında dövlət məktəbləri dayanırsa, o zaman bu, həmin məktəblərin nüfuzunu artırır, amma əgər bu nəticələr əsasən özəl təhsil xidmətlərinin nəticəsidirsə, o zaman bu, dövlət təhsilinin zəifliyinə işarədir.

Dünya təcrübəsinə nəzər salsaq, bir çox inkişaf etmiş ölkələrdə - məsələn, Finlandiyada və Estoniyada - qiymətləndirmə sistemləri standart testləşmədən daha çox tətbiqə yönəlmiş metodlara əsaslanır. Orta təhsil pilləsini başa vuran şagirdlər üçün "maksimal bal" anlayışı deyil, funksional savadlılıq əsas göstəricidir. Burada əsas məqsəd şagirdin real həyatda qarşılaşa biləcəyi problemləri necə həll edə bildiyini ölçməkdir. ABŞ-da da SAT və ACT imtahanları vasitəsilə müəyyənləşdirilən yüksək nəticələr statistik olaraq daha geniş yayılmışdır və bu, təhsil sisteminin rəqabətə açıq və geniş resurslarla təmin olunduğuna dəlalət edir.

Azərbaycanda isə yüksək nəticə göstərənlərin sayının az olması bir neçə əsas problemi ön plana çıxarır: tədris proqramlarının hələ də reproduktiv təfəkkürə əsaslanması, müəllim hazırlığında davamlı problemlər, dərsliyin keyfiyyəti və məktəbdaxili qiymətləndirmənin real göstəricilərlə üst-üstə düşməməsi. Belə nəticələr, həmçinin regionlar üzrə təhsil imkanları arasında ciddi fərqlərin olduğunu göstərir. Bölgələrdə fəaliyyət göstərən məktəblərdə yüksək bal toplayanların olmaması bərabərsizlik problemini dərinləşdirir.

Bu cür nəticələr təhsil siyasətində dəyişiklikləri qaçılmaz edir. Birincisi, buraxılış imtahanlarının strukturuna yenidən baxılmalı, test mərkəzli qiymətləndirmədən funksional nəticə yönümlü modellərə keçid təmin olunmalıdır. İkincisi, müəllimlərin ixtisasartırma və peşəkar inkişaf proqramları daha çox tətbiqi və şagirdyönlü metodlara fokuslanmalıdır. Üçüncüsü, imtahanın məqsədi və nəticəsi yalnız universitetə qəbul prosesi ilə deyil, həm də ümumi təhsilin nəticələrini ölçən mexanizm kimi qəbul edilməlidir.

Yekun olaraq, 23 nəfərin maksimal bal toplaması həm zəif nəticədir, həm də xəbərdaredici siqnaldır. Bu nəticə göstərir ki, yalnız fərdi səviyyədə deyil, sistemli şəkildə islahatlara ehtiyac var. Əgər təhsil siyasəti bu siqnalları düzgün oxuyarsa, gələcəkdə bu rəqəmlər artacaq, amma yalnız rəqəmlərlə deyil, funksional və real həyatda tətbiq edilə bilən biliklərə əsaslanan təhsil modeli formalaşacaq. Bu zaman imtahanda maksimal bal toplayanların sayı yox, məzunların həyat bacarıqları əsas göstəriciyə çevriləcək".

*Ayşən Vəli*



# Azərbaycanda televiziyalara yeni tələb qoyuldu

**Əlilliyi olan şəxslərin məlumat əldə etməsinin təmin olunması qaydası müəyyənləşir. SİA xəbər verir ki, bu məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna təklif edilən yeni - 12-1-ci maddədə əksini tapıb.**

Layihəyə əsasən, dövlət əlilliyi olan şəxslərin məlumat əldə etmək hüququna təminat verir. Azərbaycan Respublikasının dövlət dilinin şifahi formada istifadəsi zamanı eşitmə qabiliyyəti tam məhdud olan şəxslər üçün Azərbaycan işarət dili ünsiyyət dili kimi rəsmi tanınır. Dövlət büdcəsindən maliyyələşən, habelə ictimai yayımçı statusuna malik olan ümumölkə yerüstü televiziya yayımçıları praym-taym zamanı yayımladıqları informasiya xarakterli proqramlarının Azərbaycan işarət dilinin tərcüməsi ilə müşayiət olunmasını təmin edirlər. Azərbaycan işarət dilinin tərcüməsini müvafiq təhsilə və ixtisasa malik olan şəxslər həyata keçirirlər. Dövlət tərəfindən audiovizual əsərlərin subtitrləşdirilməsi təşviq edilir. Qanun layihəsi səsvermək çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700